

Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan - Qazaxıstan: Qarşılıqlı etimada əsaslanan münasibətlər



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

5 mart 2025-ci il, çərşənbə

№ 040 (6868)

Qiyməti 60 qəpik


# Mühüm müqavilə imzalandı




## Transxəzər fiber-optik kabel xətti Asiya-Azərbaycan-Avropa arasında rəqəmsal bağlantını təmin edəcək

Bax səh. 3

# Orta Dəhlizdə Ortaq Hədəflər

## "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının iclasında yeni fəaliyyət planı müəyyənləşib

Bax səh. 5

# Çoxtərəfli əməkdaşlığın yeni mərhələsi...

Bax səh. 2

# Zəngəzur dəhlizinə maneə - "yeni yol"



Bax səh. 5

# İğdır-Naxçıvan xətti istifadəyə hazırdır

Bax səh. 4

## Azərbaycan-BMT əlaqələri...

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı müstəvisində (BMT) aktivliyi də xüsusi vurğulanmalıdır.

Yeri gəlmişkən, martın 2-də respublikamızın BMT-yə üzv seçilməsinin 33 ili tamam oldu. Azərbaycan 33 il əvvəl üzv seçildiyi bu təşkilatda müvəffəqiyyətlə təmsil olunmaqla tarixi nailiyyətlərə imza atır. Bir zamanlar BMT sıralarında...

Bax səh. 3

## Saxta ədalət axtarışı

Ayrı-ayrı hallarda müxtəlif tribunalardan ölkəmizlə bağlı verilən bəyanatlar reallığı əks etdirmir, hətta qərəzli səciyyə daşıyır. BMT-nin insan haqları üzrə ali komissarı Volker Türkün səsləndirdiyi fikirlər də bu qəbildəndir. Azərbaycandan həmin qərəzli fikirlərə obyektiv münasibət özünü çox gözlətməyib. Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin cavabında, eləcə də Qərbi Azərbaycan İcmasının (QAİ) yaydığı bəyanatda Volker Türk tərəfindən BMT-nin İnsan Hüquqları Şurasında səsləndirilmiş qərəzli fikirlər sərt şəkildə qınanılıb.

Beynəxalq hüququn işləməsi...

Bax səh. 3

## Dünya Bankı yeni layihələr icra edəcək

Azərbaycan Dünya Bankı (DB) ilə yeni layihələrin icrasını müzakirə etməkdədir. Bir neçə gün əvvəl Dünya Bankının yeni təyin olunmuş icraçı direktoru xanım Beatris Meyzerlə maliyyə naziri Sahil Babayev arasında keçirilən görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlıq çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurlu nəticələri təqdir olunub. DB-nin ölkəmizlə əməkdaşlıq perspektivlərinə toxunulub...

Bax səh. 4

## ABŞ təkid edir, Ukrayna razılaşır...

Fevralın 28-də Ağ Evdə Oval kabinetdə Volodimir Zelenski ilə Donald Tramp arasında qalmaqallı görüş dünya gündəminin mərkəzində qalmaqda davam edir. Görüşdə yaşanan insidentin nəticəsi olaraq Zelenski ABŞ səfərini yarımçıq qoyub və beləliklə də, Ukraynadakı nadir torpaq metallarının işlənməsinə dair müqavilə imzalanmayıb.

Burada söhbət yalnız iki dövlət arasında hansısa bir sənədin imzalanıb-imzalanmamasından...

Bax səh. 7



# Makron Avropanı məhvə sürükləyir

Bax səh. 7



# Ermənistandakı diplomatik "şeytan yuvası"na "əl gəzdiriləcək"

Bax səh. 6





# Çoxtərəfli əməkdaşlığın yeni mərhələsi...

## Prezident İlham Əliyev "Tatneft", "KazMunayQaz" və "Uzbekneftegaz" şirkətlərinin rəhbərlərini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Rusiyanın "Tatneft" şirkətinin baş direktoru Nail Maqanovu, Qazaxıstanın "KazMunayQaz" şirkətinin İdarə Heyətinin sədri Asxat Xassenovu və Özbəkistanın "Uzbekneftegaz" şirkətinin İdarə Heyətinin sədri Baxodirjon Sidikovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu gün çoxtərəfli əməkdaşlığın yeni mərhələsinin başlandığını deyərək, bunun üçün hazırlıq işlərinin uğurla aparıldığını vurğuladı. Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistanın neft şirkətləri arasında çox sıx istehsalat münasibətlərinin artıq qurulduğunu məmnunluqla qeyd edən Prezident İlham Əliyev ikitərəfli formatda bir sıra layihələrin həyata keçirildiyini dedi, bu xüsusda səyləri birləşdirməyin önəminə toxundu.

Dövlətimizin başçısı birgə istehsal və dost ölkələrə sifarişlərin həyata keçirilməsi baxımından da dördtərəfli əməkdaşlığın rolunu qeyd etdi.

Söhbət zamanı yeni yaradılan əməkdaşlıq formatının perspektivləri barədə fikir mübadiləsi aparıldı, onun ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin daha da genişlənməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu. Vurğulandı ki, bu format çərçivəsində şirkətlər arasında fövqəladə halların aradan qaldırılması və birgə reaksiya qruplarının yaradılması, rəqəmsal texnologiyalar və proqram təminatı sahələrində işlərin optimallaşdırılması, müştərək satınalmaların təşkili, habelə müxtəlif sənaye sahələrinin inkişafı üzrə əməkdaşlıq nəzərdə tutulur.

Qeyd edildi ki, bu yeni əməkdaşlıq formatı digər xarici şirkətlərin qoşulması üçün də açıqdır.

# Azərbaycan təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcək

## Prezident İlham Əliyev D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi İsiaka Abdulqadir İmamı qəbul edib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə bağlı qəbul edilən yekdil qərara görə üzv dövlətlərə minnətdarlığını bildirən Prezident İlham Əliyev tamhüquqlu üzv kimi Azərbaycanın bu təsisatın inkişafı ilə bağlı səylərini əsirgəməyəcəyini vurğuladı. Dövlətimizin başçısı D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı



yaranandan bəri ona qoşulan ilk ölkənin Azərbaycan olmasından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev bu qərarı, eyni zamanda, üzv ölkələr tərəfindən Azərbaycana göstərilən hörmət və həmin ölkələr arasında böyük dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı qeyd etdi ki, D-8 ölkələri ilə Azərbaycanın qarşılıqlı milli maraqlara əsaslanan səmərəli konstruktiv ikitərəfli münasibətləri mövcuddur. Azərbaycanın aidiyyəti qurumları ilə təşkilat arasında əlaqələrin yaradılmasının önəminə toxunan dövlətimizin başçısı onun coğrafiyasının Xəzər dənizi və Qafqaz regionuna genişlənməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev bu xüsusda təşkilatın bölgəyə yaxınlaşmasında regionun mühüm ölkəsi kimi Azərbaycanın rolunu qeyd etdi.

Dövlətimizin başçısı Baş katib İsiaka Abdulqadir İmamın ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycanın bu təsisata üzv olması və müqəddəs Ramazan ayı münasibətilə təbriklərini çatdırdı. Qonaq, eyni zamanda, COP29-da Azərbaycanın uğurlu sədrliyi ilə bağlı dövlətimizin başçısını təbrik edərək, ölkəmizin sədrliyi çərçivəsində COP29-da iqlim gündəliyi üzrə ciddi qərarların qəbul olunduğunu vurğuladı.

D-8-in dünyada 1,2 milyard əhalisi olan üzv dövlətləri əhatə edən böyük iqtisadi və ticari potensiala malik təsisat olduğunu deyən Baş katib onun fəaliyyətinin əsasında ölkələr arasında iqtisadi-ticari münasibətlərin inkişafının dayandığını qeyd etdi. Qonaq əminliyini bildirdi ki, Azərbaycan təşkilatın daha da inkişaf etdirilməsinə, gündəlikdə duran məsələlərin həyata keçirilməsinə öz əsaslı töhfəsini verəcək.

Görüşdə D-8 çərçivəsində enerji, iqlim fəaliyyəti, ticarət, kiçik və orta sahibkarlığın inkişafı, gənclər, media və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan - Qazaxıstan: Qarşılıqlı etimada əsaslanan münasibətlər

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda region dövlətləri ilə qarşılıqlı maraqlara əsaslanan əlaqələrin genişləndirilməsi xətti xüsusi yer tutur. Bu kontekstdə ölkəmizlə dost Qazaxıstan arasında münasibətlərin getdikcə möhkəmlənməsi xüsusi diqqət çəkir. Elə bu günlərdə Qazaxıstanın Baş naziri Oljas Bektenov respublikamıza səfərə gəlib. Səfər çərçivəsində Prezident İlham Əliyev Baş naziri qəbul edib. Qəbulda uğurla inkişaf edən münasibətlərin qarşılıqlı etimada əsaslandığı vurğulanıb, müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Diqqətəlayiq haldır ki, Azərbaycan və Qazaxıstan dünyada uğurlu inkişaf modelinə malik olan dövlətlər kimi tanınırlar. Burada liderlərin rolu əvəzsizdir. Onların səyləri sayəsində reallaşdırlan islahatlar kursu hər iki ölkənin hərtərəfli dinamik inkişafını təmin edir. Qəbulda Azərbaycanın və Qazaxıstanın sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlər olduğunu söyləyən Prezident İlham Əliyev beynəlxalq arenada, bölgəmizdə və daha geniş regionda ölkələrimizin vacib roluna toxunub.



## Xalqlarımızın tarix boyunca sınaqdan çıxan dostluğu

Əlamətdar haldır ki, dövlətlərin, liderlərin ikitərəfli əlaqələrin dərinləşməsinə göstərdikləri qətiyyətli siyasi iradə hər iki ölkənin cəmiyyətləri tərəfindən güclü şəkildə dəstəklənir. Qəbulda xalqlarımızın qardaş xalqlar olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, bu, qarşılıqlı münasibətlərimizin tarixi boyu dəfələrlə sübut olunub. Azərbaycan və qazax xalqlarını tarixdən gələn ənənələrə, həyat tərzlərinə, milli-mənəvi-dini dəyərlərinə görə bir-birinə çox yaxındırlar. Hər iki xalq Türk soyundan gəlir və tarixi keçmişi ilə qürur duyur. Üç onilliyi əhatə edən müstəqillik tarixində Azərbaycan və Qazaxıstan möhkəm tarixi zəmin üzərində sıx münasibətlər quraraq əlaqələrini starteji tərəfdaşlıq səviyyəsinə yüksəldiblər.

Eyni zamanda, ikitərəfli münasibətlər mədəni bağlarla daha da möhkəmlənir. Bunu təkcə son illərdə baş tutan tədbirlərin timsalında da görmək mümkündür. Azərbaycanda Qazaxıstanın, dost ölkədə Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi artıq ənənə halını alıb. İki ölkənin gəncləri arasında təmaslar da ikitərəfli humanitar əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Tərəflər gənclər siyasəti və təhsil sahəsində əməkdaşlığın inkişafı üçün qarşılıqlı şəkildə atılan addımları alqışlayırlar.

2023-cü ildə Azərbaycanda olduğu kimi, Qazaxıstanda da "Heydər Əliyev İli" yüksək səviyyədə qeyd olunub. Burada zamanında ikitərəfli əlaqələrin inkişafına sanballı töhfələr vermiş Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilib. O cümlədən "Qazaxıstan" telekanalında Heydər Əliyevin zəngin həyat yolu haqqında "Görkəmli həyat" adlı sənədli filmin premyerası baş tutub. Dost Qazaxıstanda Heydər Əliyevin 100 illiyi ilə bağlı tədbirlərin keçirilməsinə Prezident İlham Əliyevin bu ölkəyə 2023-cü ilin aprel ayında baş tutan uğurlu rəsmi səfəri çərçivəsində start verilib. Dövlətimizin başçısı aprelin 10-da Astanada Heydər Əliyev küçəsinin təntənəli açılış mərasiminə qatılıb.

Bu qəbildən olan mədəni tədbirlər xalqlarımızın əbədi dostluğunu təcəssüm etdirir. 2024-cü il martın 12-də Füzulidə prezidentlərin iştirakı ilə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılması hər iki ölkənin və xalqın tarixdən gələn ənənələrə sadiq qaldıqlarını təsdiqləyir. Füzulidə Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması təşəbbüsü şəxsən Qazaxıstan Prezidentindən gəlib. Bu, təkcə Uşaq Yaradıcılıq Mərkəzi deyil, həm də Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi kimi fəaliyyət göstərir.

Onu da vurğulamaq yerinə düşər ki, Qazaxıstan dövləti və xalqı hər iki Qarabağ müharibəsi zamanı Azərbaycana dəstək nümayiş etdirib. Böyük qazax mütəfəkkiri Oljas Süleymenov 1990-cı ildə SSRİ Ali Sovetinin sessiyasında rus-erməni şovinizminə qarşı çıxış edərək Azərbaycanın haqq səsini dünyaya çatdırıb. Birinci Qarabağ müharibəsində qəhrəmancasına həlak olan qazax şəhidi Yerbol Barımbekovun xatirəsi daim anılır.



## Azərbaycanda və Qazaxıstanda baş tutan mütəmadi görüşlər

Xəzər hövzəsi regionunun iki nüfuzlu dövlətinin qarşılıqlı əlaqələrinin bugünkü yüksək səviyyəsindən bəhs edərkən liderlər arasında yaranan səmimi münasibətlərin rolunu xüsusi vurğulamaq lazımdır. Qəbulda dövlətimizin başçısı bir çox sahələri əhatə edən münasibətlərimizin dinamik inkişafından məmnunluğunu bildirərək, Prezident Kasım-Jomart Tokayevlə həm Azərbaycanda, həm də Qazaxıstanda mütəmadi görüşlərini xatırladıb.

Qazaxıstan Prezidentinin ötən il Azərbaycanda keçirilən COP29-da iştirakına görə bir daha minnətdarlığını bildirən Prezident İlham Əliyev deyib ki, bu, Qazaxıstanın ölkəmizlə həmrəyliyini nümayiş etdirib, həmçinin konfransın uğurla yekunlaşmasına öz töhfəsini verib.

Dövlətimizin başçısı COP29-da bir sıra vacib məsələlərin razılaşdırıldığını, eyni zamanda, ölkələrimizi daha da yaxınlaşdıracaq layihələrin formalaşdırıldığını qeyd edib.

Bütövlükdə, Azərbaycan Prezidenti Qazaxıstanda, dost ölkənin dövlət başçısı isə respublikamızda müntəzəm qaydada səfərlərdə olurlar. Onlar ikitərəfli formatda olduğu kimi, beynəlxalq tədbirlər çərçivəsində də bir araya gələrək fikir mübadiləsi aparır, razılaşdırlan layihələrin icrası ilə maraqlanırlar və yeni əməkdaşlıq istiqamətlərini müəyyənləşdirirlər. Biz Kasım-Jomart Tokayevin ötən ilin noyabrında Azərbaycanda COP29 konfransına qatıldığından bəhs etdik. Öz növbəsində Prezident İlham Əliyev ötən ilin iyul ayında Qazaxıstanın paytaxtı Astanada baş tutan Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin növbəti Zirvə görüşünə qatılıb. "ŞƏT+" formatında keçirilən Sammitdə 16 ölkənin dövlət və hökumət başçıları iştirak ediblər. Azərbaycan ŞƏT-in diqloq tərəfdaşı statusuna malikdir. Artıq Azərbaycan Prezidentinin xüsusi dəvət əsasında ŞƏT-in Zirvə görüşlərində iştirakı ənənə halını alıb. Dövlətimizin başçısı 2022-ci ilin sentyabr ayında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə baş tutan sammitində fəxri qonaq qismində iştirak edib. ŞƏT-in ötənilki Zirvə görüşünə isə dövlətimizin başçısı dost Qazaxıstanın Prezidentindən dəvət alıb.



## İkitərəfli əlaqələrin geniş potensialı

Öz növbəsində Qazaxıstanın Baş naziri də ölkələrimiz arasında əlaqələrin inkişaf etməsindən məmnunluğunu bildirib, bu məsələdə Azərbaycan və Qazaxıstan prezidentlərinin etimada əsaslanan münasibətlərinin rolunu qeyd edib. Əlaqələrimizin potensialına toxunan Oljas Bektenov bildirib ki, Qazaxıstan və Azərbaycan hökumətləri hər iki ölkənin prezidentləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi üçün səy göstərirlər. O, bu xüsusda dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, Trans-Xəzər multimodal nəqliyyat marşrutunun inkişafı üzrə fəal iş apardıqlarını deyib və bu marşrutla yük axınının ötən il 60 faiz artdığını diqqətə çatdırıb.

Son üç ildə ölkələrimiz arasında illik ticarət dövriyyəsinin təxminən 3 dəfə artması kifayət qədər yaxşı göstəricidir. Nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında davamlı artım müşahidə edilir. Qəbulda Azərbaycanda və Qazaxıstanda yaradılmış birgə investisiya fondu vasitəsilə investisiya layihələrinə dəstək verilməsi, neft-qaz sahəsində birgə layihələrin həyata keçirilməsi, o cümlədən Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə daşınma həcminin artırılmasının perspektivləri ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin, "yaşıl enerji" sahəsində COP29 çərçivəsində imzalanmış sualtı kabel xətti ilə Azərbaycan və Qazaxıstan energetika sisteminin birləşdirilməsi və yaşıl enerji sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.

***Mübariz ABDULLAYEV***

# Mühüm müqavilə imzalandı

## Transxəzər fiber-optik kabel xətti Asiya-Azərbaycan-Avropa arasında rəqəmsal bağlantını təmin edəcək

Azərbaycanda səfərdə olan Qazaxıstanın Baş naziri Oljas Bektenovun səfəri çərçivəsində imzalanan mühüm sazişlərdən biri iki ölkə arasında rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan Transxəzər fiber-optik kabel xəttinin tikintisinə dair müqavilədir. Azərbaycan və Qazaxıstanın Baş nazirləri Əli Əsədov və Oljas Bektenovun iştirakı ilə imzalanan müqaviləyə əsasən, Sumqayıt və Aktau şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda sualtı mobil kommunikasiya xətti inşa olunacaq. Bu rabitə platforması çoxterabitli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulmasını təmin edəcək.

Tikinti prosesi sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksək keyfiyyətli, davamlı kabellərin layihələndirilməsi və istehsalı, habelə onların daşınması və quraşdırılması da daxil olmaqla bir neçə mərhələdə həyata keçiriləcək. Rəqəmsal kabelin kommunikasiya təminatçıları iki ölkənin aparıcı telekommunikasiya şirkətləri olan “AzerTelecom” və “Kazakhtelecom”dur. Birgə operatorlar tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır.



## “Rəqəmsal İpək Yolu”

“Rəqəmsal İpək Yolu” (Digital Silk Way) layihəsinin mühüm komponenti olan Transxəzər fiber optik kabel xətti təkcə iki ölkənin kommunikasiya layihəsi deyil, eyni zamanda, müxtəlif ölkələrin, o cümlədən Gürcüstan, Türkiyə, və Türkmənistan ərazilərindən keçməklə Asiya-Azərbaycan-Avropa regionları arasında yeni bağlantı hesab edilir. Bu rəqəmsal infrastruktur landşaftı həmin ölkələr arasında məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edəcək.

Bu layihə Xəzər-Asiya regionlarında ən optimal və qısa marşrut olmaqla ölkələr arasında kommunikasiya-rəqəmsal bağlantını təmin etməklə yanaşı, bölgədə çalışan biznes icmasının fəaliyyətində də yeni imkanlar açacaq. Belə ki, müasir kommunikativ arxitektura sayəsində biznes mühitinin yaxşılaşdırılması sayəsində bu coğrafiyadakı sahibkarların müxtəlif iqtisadi mal və xidmətlər üzrə mübadiləri asanlaşacaq, ticarətin səmərəliliyi yüksələcək. Eyni zamanda, Asiyadan Avropaya yayılacaq rəqəmsal xidmətlərin və məhsulların artımı sürətlənməklə bölgəyə yeni tərəfdaşların cəlb olunmasına şərait yaradacaq. Bu çoxtərəfli platforma isə Azərbaycan və Qazaxıstanın inkişafında, eləcə də digər region ölkələrinin dünya miqyasında mövqelərinin yüksəldilməsində mühüm rol oynayacaq.

## Qarabağ Bəyannaməsinin mühüm prioritetlərindən biri

Azərbaycan və Qazaxıstanın təməlini qoyduğu “Rəqəmsal İpək Yolu” platforması həm də Türk dövlətlərinin ortaq maraqlarına xidmət edir. Belə ki, 2024-cü ilin iyul ayında Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün yekununda imzalanan Qarabağ Bəyannaməsinin mühüm prioritetlərindən biri qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. Tərəflər 2023-cü ilin noyabr ayında Özbəkistanda keçirilmiş IX Zirvə Görüşünün yekununda imzalanmış Səmərqənd Bəyannaməsində “Rəqəmsal İpək Yolu” layihəsi çərçivəsində Trans-Xəzər fiber-optik kabel infrastrukturunun yaradılmasını və özlərinin IT infrastrukturlarının bu dəhlizə inteqrasiyası üçün mövcud sistemlərin təkmilləşdirilməsi barədə razılığa gəlib. Müəyyən edilmiş strategiyaya əsasən, Xəzərin dibi ilə Trans-Xəzər fiber-optik kabel xəttinin çəkilişi 2026-cı ilə qədər tam başa çatdırılması nəzərdə tutulub. Türk dövlətlərinin hər birinin yerləşdiyi əlverişli coğrafiya onların müasir dünyada ən innovativ iqtisadi platformalardan biri olan “Digital Hub” ətrafında sıx birləşməsi üçün əlverişli imkanlar yaradır.

Beləliklə, Fiber-Optik Kabel Xətti müasir rəqəmsal hub olmaqla Türk dövlətləri arasında qabaqcıl kommunikasiyaların mübadiləsi, vahid rəqəmsal platformada koordinasiyanın qurulmasını da öz töfhəsini verəcək. Nəticədə bu, qardaş ölkələr arasında regional ticarət həcmlərinin artması və qarşıdakı illərdə əlavə mal mübadiləsinin, ələxsus da rəqəmsal ticarətin genişlənməsini təşviq edəcək. Türk ölkələri öz mövcud rəqəmsal infrastrukturlarını vahid məkanda birləşdirməklə yaxın illərdə “Rəqəmsal İpək Yolu” layihəsi ilə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin əsas mərkəzinə çevriləcək.

## “Digital Hub” Türk dövlətləri arasında əlaqələri gücləndirəcək

“Digital Hub”, həmçinin türk dövlətlərinin digər böyük hədəflərindən biri olan ticarətdə texniki maneələrin aradan qaldırılmasını nəzərdə tutan Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişinin (DEPA) tələblərinin icrasını da tezləşdirəcək. Bu saziş ölkələr arasında güzəştli ticarət rejimlərinin tətbiqi üçün ən sərfəli alətlərdən biri hesab edilir. Həmin sazişin ilkin modelini Azərbaycan və Türkiyə öz ticarət rejimlərində 2 ilə yaxındır ki, tətbiq etməkdədir. Belə ki, preferensial (güzəşt) çərçivəsinə əsasən, iki ölkə bir-birinə idxal edilən bir sıra məhsulların bəzi kateqoriyalarına gömrük rüsumunun həcmini azaldıb. Ona görə də, bu hüquqi mexanizmin bütün türk dövlətlərinin gömrük-ticarət siyasətinə şamil edilməsi nəzərdə tutulur. Bu baxımdan DEPA sazişi səmərələşdirici layihə kimi üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması istiqamətində də vahid çərçivəni təmin edəcək.

Beləlilklə, Azərbaycan və Qazaxıstanın təməlini qoyduğu rəqəmsal layihələr, ümumilikdə, bütün Türk dövlətləri arasında qarşılıqlı mübadilələrin və birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığı daha da gücləndirəcək, eləcə də biznes qurumları arasında işgüzar münasibətləri genişləndirəcək.

***E.CƏFƏRLİ***

# Azərbaycan-BMT əlaqələri...

## Ölkəmiz prioritetlərini yeni dövrün reallıqlarına uyğun həyata keçirir

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı müstəvisində (BMT) aktivliyi də xüsusi vurğulanmalıdır.

## Müstəqillik tariximizin mühüm hadisələrindən biri...

Yeri gəlmişkən, martın 2-də respublikamızın BMT-yə üzv seçilməsinin 33 ili tamam oldu. Azərbaycan 33 il əvvəl üzv seçildiyi bu təşkilatda müvəffəqiyyətlə təmsil olunmaqla tarixi nailiyyətlərə imza atır. Bir zamanlar BMT sıralarında sıravi üzv olan Azərbaycan indi qurumun ən aktiv üzvlərindən birinə çevrilib. Müstəqil Azərbaycanın tarixinin ən mühüm hadisələrindən biri şübhəsiz ki, 2011-ci il oktyabrın 24-də Azərbaycanın 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsidir. Əlbəttə, 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi Azərbaycanın yüksək beynəlxalq nüfuzunun göstəricisi, Prezident İlham Əliyevin dərin strateji diplomatiya siyasətinin nəticəsi idi. 2012-ci il yanvarın 1-də isə Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi səlahiyyətlərinin icrasına başladı. Bunun ardınca həmin il may ayının 4-də Nyu-Yorkda Prezident İlham Əliyevin Sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilib. İclasda Azərbaycanın təşəbbüsü ilə “Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər” mövzusunda müzakirələr aparılıb. Prezident İlham Əliyev çıxışında Ermənistanın ölkəmizə qarşı yönəlmiş terrorçu siyasətini ifşa edib və prinsipial mövqeyini bir daha dünyanın ən mötəbər qurumunun tribunasından dünya ictimaiyyətinə çatdırıb. Bundan başqa, ölkəmiz 2013-cü ilin oktyabr ayında da quruma sədrlik edib. Bütövlükdə, Azərbaycan BMT TŞ-yə sədrlik müddətini uğurla həyata keçirib. Bu dövrdə BMT TŞ-də dünyanı narahat edən bir sıra mühüm məsələlər gündəliyə daxil edilib və səmərəli müzakirələr aparılıb, müvafiq sənədlər qəbul edilib.



## BMT TŞ-nin qətnamələrini öz gücünə bərpa etməklə ölkəmiz dünyada nümunə yaradıb

Məlumdur ki, Azərbaycanın 44 günlük müharibədə möhtəşəm qələbə qazanaraq torpaqlarını işğaldan azad etməsi təkcə ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil. Bu, eyni zamanda, dünyada yeni nümunənin yaradılmasıdır. Söhbət BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasına nail olmaqdan gedir. Bu, eyni zamanda, BMT-nin korlanmış imicinin bərpası üçün yeni nümunə yaradılması və ya şərait formalaşdırılması baxımından önəmli hadisə oldu.

Ümumiyyətlə, hazırda Azərbaycan-BMT əməkdaşlığı müxtəlif platformalarda davam etməkdədir. Yeri gəlmişkən, BMT-nin İnkişafı Əlaqələndirmə Ofisinin Avropa və Mərkəzi Asiya üzrə Regional direktoru Qui-Yeop Sonun Azərbaycana səfəri də bu əməkdaşlığın göstəricisidir. Martın 3-də xarici işlər naziri Ceyhun Bayramov Qui-Yeop Sonu qəbul edib. Görüş zamanı Azərbaycan-BMT əlaqələrinin cari vəziyyəti və perspektivləri, BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin icrası istiqamətində əməkdaşlığın müxtəlif aspektləri, eləcə də bu əməkdaşlığın yeni dövrün reallıqlarına və Azərbaycanın dayanıqlı inkişaf sahəsində milli prioritetlərinə uyğunlaşdırılaraq daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

## Hansı məsələlər müzakirə edilib?

Ceyhun Bayramov 2025-ci il 2 mart tarixinin Azərbaycanın BMT-yə üzv olaraq qəbul edilməsinin 33-cü ildönümünə təsadüf etdiyini və ötən müddət ərzində Azərbaycanla BMT sisteminə daxil olan qurumlar arasında əməkdaşlığın səmərəli və konstruktiv şəkildə qurulduğundan məmnunluq duyduğunu bildirib. Xüsusilə müstəqilliyinin ilk illərində ərazilərinin işğalı və bir milyona yaxın qaçqın və məcburi köçkün problemi ilə üzləşən Azərbaycanın qarşılaşdığı iqtisadi və sosial çağırışlara qarşı mübarizədə dəstək vermək məqsədilə həmin dövrdən etibarən ölkəmizdə fəaliyyətə başlayan bəzi BMT qurumları ilə həyata keçirilmiş əməkdaşlığın Azərbaycanda institusional inkişaf və qabiliyyət quruculuğuna mühüm töhfə verdiyi bildirilib.

Eyni zamanda, ərazilərimizin işğaldan azad edilməsi və son illərdə Azərbaycanın əldə etdiyi sosial-iqtisadi tərəqqinin sosial profilli layihələrin icrasında ölkənin öz daxili resurs və imkanlarına arxalanmağa şərait yaratdığı, Azərbaycanın bir sıra BMT qurumları vasitəsilə bir çox ölkələrə donorluq fəaliyyəti göstərdiyi xüsusilə qeyd olunub. Bununla əlaqədar, Azərbaycanın BMT ilə əməkdaşlıqdakı prioritetlərini yeni dövrün reallıqlarına uyğun və BMT-nin resurslarından daha səmərəli istifadə edəcək şəkildə yenidən nəzərdən keçirdiyi vurğulanıb. Bu xüsusda, bəzi BMT qurumları ilə bundan sonrakı tərəfdaşlığın milli prioritetlərə uyğun şəkildə layihə əsaslı əməkdaşlıq mexanizmi vasitəsilə davam etdiriləcəyi müqabil tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın artıq yardım qəbul edən dövlətdən qlobal gündəliyə töhfə verən bir ölkəyə çevrilməsi ilə əlaqədar, dövrün tələblərinə uyğun olaraq, BMT ilə əməkdaşlıqda BMT-nin Məskunlaşma Proqramı, BMT-nin Ətraf Mühit Proqramı, BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyi və digər aidiyyəti qurumlar ilə əməkdaşlığın prioritet təşkil etməsi və bəzi BMT qurumları ilə də gələcək əməkdaşlığın bu model əsasında, birbaşa mənzil qərargahları ilə işləməklə davam etdiriləcəyi qeyd olunub.

Qui-Yeop Son ölkəmizi COP29-un uğurlu təşkilatçılığı və əldə olunan tarixi nəticələr münasibətilə təbrik edərək, bu istiqamətdə Azərbaycanla BMT sistemi arasında həyata keçirilmiş əməkdaşlığın təqdirəlayiq olduğunu bildirib. Xanım Son BMT-nin 2030 Dayanıqlı İnkişaf Gündəliyinin icrasına dəstək istiqamətində hökumət ilə yüksəksəviyyəli əməkdaşlıqdan və tərəfdaşlıqdan məmnunluq ifadə edib. O, milli inkişaf prioritetlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə dəstək üçün Azərbaycan hökuməti ilə tərəfdaşlıq və əməkdaşlığı davam etdirməyə hazır olduqlarını qeyd edib.

***Nardar BAYRAMLI***

# Saxta ədalət axtarışı

**Ayrı-ayrı hallarda müxtəlif tribunalardan ölkəmizlə bağlı verilən bəyanatlar reallığı əks etdirmir, hətta qərəzli səciyyə daşıyır. BMT-nin insan haqları üzrə ali komissarı Volker Türkün səsləndirdiyi fikirlər də bu qəbildəndir. Azərbaycandan həmin qərəzli fikirlərə obyektiv münasibət özünü çox gözlətməyib. Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin cavabında, eləcə də Qərbi Azərbaycan İcmasının (QAİ) yaydığı bəyanatda Volker Türk tərəfindən BMT-nin İnsan Hüquqları Şurasında səsləndirilmiş qərəzli fikirlər sərt şəkildə qınanılıb.**



## Hər kəs üçün cavabdehlik

Beynəxalq hüququn işləməsi üçün ilk növbədə selektiv yanaşmalara son qoyulmalıdır və bunu BMT kimi qurumlar etməlidirlər. Dünya xalqları bu quruma ümid yeri kimi baxırlar. Ancaq ona bəslənilən ümidlər doğrulmur.

Azərbaycan ədalətsiz yanaşmanı təxminən otuz il ərzində öz üzərində hiss edib. Belə ki, BMT-nin məlum dörd qətnaməsi kağız üzərində qalıb, ədalətsiz müharibə aparan, çoxsaylı cinayətlər törədən Ermənistan cəzalandırılmayıb. Cinayətkarları Azərbaycanın özü cəzalandırdı. Ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycan, həmçinin zamanında torpaqlarımızda ağır müharibə cinayətlərinin törədilməsində iştirak etmiş separatçılar üzərində ədalət məhkəməsinin qurulmasına da nail olub. Onlar layiq olduqları cəzalarını alacaqlar. Buna heç kəsin şübhəsi olmasın. Volker Türk kimilərinin saxta ədalət axtarışına da hər hansı bir lüzum yoxdur.

“Sülh üçün səyləri təqdir etmək tam mənzərəni kölgədə qoymamalıdır. Ədalət axtarışı müharibə cinayətlərində, etnik təmizləmədə, hərbi təcavüzdə, işgəncələrdə və digər ağır cinayətlərdə ittiham olunan və ya məhkum edilən hər kəs üçün cavabdehlik tələb edir”, - deyə Ayxan Hacızadə vurğulayıb. Onun sözlərinə görə, həqiqəti bərqərar etmək, qurbanlara ədaləti çatdırmaq və qanunun aliliyini təmin etmək üçün beynəlxalq hüquqi standartlara riayət etməklə ədalətli məhkəmə araşdırması vacibdir. Fikirlərinə davam edən XİN rəsmisi vurğulayıb: “Yalnız həqiqəti söyləmək, yaraları sağaltmaqla sülh və barışıq cəzasızlığa qalib gələcək”.

QAİ-nin yaydığı bəyanatda Volker Türk tərəfindən BMT-nin İnsan Hüquqları Şurasında səsləndirilmiş qərəzli fikirlər qınanılıb. Sənəddə vurğulanır ki, biz ali komissardan Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının ağır fəsadlarını, o cümlədən dini-mədəni irsin dağıdılmasını və mina terrorunu pisləməsini, Ermənistanı itkin düşmüş 4 minə qədər azərbaycanlının taleyinin müəyyənləşdirilməsi üçün ölkəmizlə səmimi əməkdaşlığa dəvət etməsini gözləyirdik.



## Qınaq doğuran çağırış

QAİ ali komissarı beynəlxalq hüquqa, beynəlxalq humanitar hüquqa, beynəlxalq insan hüquqlarına selektiv yanaşmamağa və suveren dövlətin məhkəmə sisteminin işinə müdaxilə etməməyə çağırıb. “Biz ali komissardan Ermənistanı öz dədə-baba yurdlarına dinc yolla qayıdış uğrunda mübarizə aparan Qərbi azərbaycanlılarla dialoqa başlamağa çağırmasını gözləyirdik. Lakin ali komissar bunların heç birini etmədi. Əksinə, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə qarşı fəaliyyət göstərdi, Xocalı soyqırımını törətmiş hərbi canilərin azad olunmasına çağırış etdi. Ali komissarın bu çağırışı faktiki olaraq cəzasızlığı təşviq etmək anlamına gəlir”, - deyə bəyanatda qeyd olunub.

***MÜBARİZ***

# “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi”





Martın 4-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi” mövzusunda tədbir keçirilib.

Əvvəlcə YAP Yasamal rayon təşkilatının inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, hər bir xalqın vahid məram və məqsəd ətrafında birləşərək inkişaf yolunu düzgün müəyyənləşdirməsi milli ideologiya ilə sıx bağlıdır: “Azərbaycançılıq müstəqil Azərbaycan dövlətinin və xalqımızın milli ideologiyasıdır. Azərbaycançılıq məfkurəsinin əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların bərabərliyi ideyası dayanır. Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası vaxtilə dövlətimizə qarşı müxtəlif istiqamətlərdən yönələn təhdidlərin qarşısının alınmasında mühüm amil olub. Bu gün azərbaycançılıq milli dövlət ideologiyası kimi Konstitusiya əsaslarına söykənən, Azərbaycanın müstəqilliyinə, onun hüquqi və demokratik dövlət kimi inkişafına və milli təhlükəsizliyinin qorunmasına xidmət edən dəyərlər sistemidir”.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının müəllifidir: “Ulu Öndər hələ sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışıb. Ümummilli Liderimiz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bu ideologiyanı daha da gücləndirdi”.

A.Rəhimzadə deyib ki, Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, tolerantlığın bərqərar olduğu ölkədir. Burada hər bir xalqın nümayəndəsinə bərabər münasibət göstərilir. “Ona görə də Azərbaycan vətəndaşları azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, xüsusilə dövlət quruculuğuna da öz müsbət təsirini göstərir”, - deyə YAP Veteranlar Şurasının sədri söyləyib.

Bakı Dövlət Universitetinin (BDU) professoru, tarix elmləri doktoru Nuru Məmmədov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası səviyyəsinə yüksəldib. Azərbaycançılığın xalqımızın milli-tarixi sərvəti olduğunu deyən N.Məmmədovun sözlərinə görə, bu, ilk növbədə, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi-ideoloji əsasıdır. Azərbaycançılığın mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir: “Azərbaycançılıq ideologiyası Azərbaycanın ərazisində yaşayanların həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini, ölkəmizin güclənməsini istəyən insanları birləşdirir. Ona görə də bu məfkurə dünyada yaşayan bütün azərbaycanlıları öz ətrafında cəmləşdirir”.

Çıxış edən YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova da azərbaycançılıq məfkurəsinin önəmindən bəhs edib. O deyib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından müstəsna əhəmiyyət kəsb edir: “Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Biz bundan sonra da milli-mənəvi dəyərlərimizi qoruyaraq, adət-ənənələrimizi daim yaşadaraq azərbaycançılıq məfkurəsini qorumalıyıq”.

Sonra tədbir interaktiv formada davam edib, gənclərin sualları cavablandırılıb.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# İğdır-Naxçıvan xətti istifadəyə hazırdır

## Qaz kəməri Muxtar Respublikanın yanacaq asılılığını aradan qaldıracaq və enerji təhlükəsizliyini möhkəmləndirəcək

Gələn həftə İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi nəzərdə tutulur. Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar bildirib ki, hazırda boru kəmərində son tamamlanma işləri aparılır və bir neçə gündən sonra qaz xəttinin açılış mərasimi baş tutacaq. Prezident Rəcəb Tayyib Ərdoğanın da iştirak edəcəyi gözlənilən tədbir regionun enerji və iqtisadi həyatında mühüm hadisə kimi dəyərləndirilir.

Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəmərinin çəkilməsinə dair 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə hökumətləri arasında anlaşma memorandumu imzalanıb. Prezident İlham Əliyevin 2022-ci il 10 fevral tarixli sərəncamına əsasən, boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın prioritet layihələri sırasında yer alıb və Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verən enerji infrastrukturlarından biri hesab olunur.

### Azərbaycanın enerji müstəqilliyi güclənəcək

İğdır-Naxçıvan qaz kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometrdir. Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı sabit və etibarlı bir mənbədən tam qarşılanacaq. Qeyd edək ki, hazırda Naxçıvan qazla Azərbaycan və İran arasındakı svop müqaviləsi əsasında təmin olunur, İğdır-Naxçıvan xəttinin istifadəyə verilməsi bu asılılığı tamamilə aradan qaldıracaq, enerji təhlükəsizliyi möhkəmlənəcək.

Gələcəkdə çox artırılması nəzərdə tutulur. Layihə, eyni zamanda, Azərbaycanın enerji müstəqilliyini gücləndirəcək, həm də Türkiyə ilə iqtisadi bağları daha da möhkəmləndirəcək.

### Növbəti hədəf Qars-İğdır-Naxçıvan “yaşıl enerji” dəhlizidir

Azərbaycanla Türkiyənin Qars-İğdır-Naxçıvan layihəsi təkcə qaz xəttinin əlaqələndirilməsi ilə bitmir, buraya coğrafi tranzit üzrə elektrik enerjisi, “yaşıl enerji” və dəmir yolu bağlantılarının qurulması da daxildir. Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni mərhələsi hesab edilən “yaşıl enerji” dəhlizi regionda və Avropa qitəsində enerji təchizatının sabitliyini dəstəkləyən bir addımdır.

Perspektiv plana əsasən, “yaşıl enerji”nın əsas vadilərindən biri olan Naxçıvanın potensial bərpaolunan enerji ehtiyatlarının qardaş ölkəyə ixracı da məhz bu coğrafi xətt üzrə həyata keçiriləcək, layihənin növbəti ünvanı Qarsdan Türkiyənin mərkəzi enerji sistemi ilə “yaşıl enerji”nin digər regionlara çatdırılmasıdır.

Ötən ilin sonlarında Azərbaycan və Türkiyə hökumətlərinin üzvləri gələcək perspektivləri nəzərdən keçirərək Naxçıvan-Qars tranziti üzrə Avropaya “yaşıl enerji” tədarükü ilə bağlı müştərək layihələrin inkişaf etdirilməsini qərara alıblar.

Hazırda Türkiyə və Azərbaycan enerji infrastrukturlarının inteqrasiyasını başa çatdırmaq və enerji ixracını, xüsusilə Naxçıvan vasitəsilə həyata keçirmək üzərində işləyirlər. Naxçıvanda bərpa olunan enerjiyə əsaslanan istehsal müəssisəsinin açılması da Türkiyənin enerji bazarına qoşulması üçün nəzərdə tutulub. Bu plana uyğun olaraq, Naxçıvan üzərindən “Türkiyə-Azərbaycan Qarşılıqlı Əlaqə” layihəsinin icrası, Gürcüstan-Azərbaycan-Türkiyə-Bolqarıstan-Avropa” “yaşıl dəhliz”inin çəkilişi üzrə müvafiq addımların atılması razılaşdırılıb. Beləliklə, Azərbaycan və Türkiyə arasında “yaşıl enerji” dəhlizinin yaradılması regionun və Avropanın enerji təhlükəsizliyi üçün böyük töhfə olacaq.



### Bakı-Tbilisi-Qarsın davamı - Qars-İğdır-Naxçıvan dəmir yolu xətti

Azərbaycan və Türkiyənin Qars-İğdır-Naxçıvan ideyası üzrə digər layihəsi dəmiryolu xəttinin çəkilməsidir. Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan yeni xəttin ərsəyə gəlməsinin təşəbbüskarı Prezident İlham Əliyev olub. Bu təklifin gerçəkləşməsi üçün 2020-ci ildə “Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu” imzalanıb. Həmçinin, 2021-ci ildə imzalanmış “Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin də əsas bəndlərindən biri nəqliyyat-logistika imkanlarının daha da artırılmasıdır ki, sənəddə tranzitlərin şaxələndirilməsi ilə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, o cümlədən, Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınaraq bu bölgənin mühəndis-kommunikasiya xətlərinin vahid nəqliyyat sistemlərində əlaqəndirilməsi nəzərdə tutulub.

Hazırda Orta Dəhlizin ən mühüm nəqliyyat axınlarından biri kimi strateji əhəmiyyətini artıran Bakı-Tbilisi-Qars yolunun genişləndirilməsi sayəsində yeni nəqliyyat sxeminin əsas qollarından birinə çevriləcək Qars-İğdır-Naxçıvan dəmir yolu bölgədə geniş nəqliyyat şəbəkələri hubunun inteqrasiyasına səbəb olacaq. Bu dəmir yolu xətti Naxçıvan vasitəsilə Türkiyə və Avropaya çıxış imkanlarını artıracaq.

***ELBRUS CƏFƏRLİ***

# Dünya Bankı yeni layihələr icra edəcək

## Yeni 5 illik Tərəfdaşlıq Çərçivəsində “yaşıl iqtisadiyyat” quruculuğuna maliyyə dəstəyi göstəriləcək

Azərbaycan Dünya Bankı (DB) ilə yeni layihələrin icrasını müzakirə etməkdədir. Bir neçə gün əvvəl Dünya Bankının yeni təyin olunmuş icraçı direktoru xanım Beatris Meyzerlə maliyyə naziri Sahil Babayev arasında keçirilən görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uzunmüddətli səmərəli tərəfdaşlıq çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən birgə layihələrin uğurlu nəticələri təqdir olunub. DB-nin ölkəmizlə əməkdaşlıq perspektivlərinə toxunulub. Azərbaycan hökumətinin DB ilə əlaqələri genişləndirməkdə maraqlı olduğu bildirilib.

### Ölkə Tərəfdaşlıq Çərçivəsi hansı prioritetləri nəzərdə tutur?

Qeyd edək ki, bir müddət əvvəl Dünya Bankının böyük bir missiyası da Azərbaycanda olub və iqtisadi qurumlarının rəhbərləri ilə görüşlərdə yeni proqramların icrasının zəruriliyinə toxunulub. DB ilə aparılan məsləhətləşmələrə uyğun olaraq ölkəmizlə əməkdaşlığın yeni prioritetlərini nəzərdə tutan 2025-2029-cu illərə dair Ölkə Tərəfdaşlıq Çərçivəsi hazırlanması qərara alınıb. Sənədin əsas istiqamətləri neft və qaz gəlirlərindən asılılığın azaldılması və qeyri-neft mənbələrinin sütunları üzrəində dayanıqlı iqtisadi artımların təmin edilməsi, şaxələndirilmiş gəlirlərin insan kapitalına yönəldilməsi və sosial rifahın yaxşılaşdırılması, fiziki infrastruktura və daha güclü institutlara investisiya yatırımlarının artımı yolu ilə ölkənin xarici şoklara dayanıqlığının gücləndirilməsindən ibarətdir. Ümumilikdə, ÖTÇ-nin əsas məqsədi və qayəsi idarəçilik, insan kapitalı və kommunikasiya bağlantılarının əlaqələndirilməsi və insanların ortaq rifahının təşviqindən ibarətdir.

Dünya Bankı (DB) yeni islahatların Azərbaycanın uzunmüddətli inkişafında, xüsusilə də qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafda töhfəverici rol oynayacağını da proqnozlaşdırır. Yeri gəlmişkəm, DB-nin bir müddət əvvəl “Qlobal İqtisadi Perspektivlər” adlı hesabatında Azərbaycanla bağlı proqnozlar yenilənib. Sənəddə ümumi daxili məhsul (ÜDM) istehsalı cari ildə 2,8 faiz, 2026-cı ildə isə 3,4 faiz proqnozlaşdırılır. 2025-2026-cı illərdə Azərbaycanda inflyasiyanın isə 2,3-3 faiz olacağı ehtimal edilir.



### 2030-cu ilə dair Milli Prioritetlərə dəstək

DB ilə Azərbaycan arasında əməkdaşlığın gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə, “yaşıl iqtisadiyyat” və “yaşıl enerji” sahəsində yeni layihələrin icrası da dayanır. Bank “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in 5-ci istiqaməti olan “təmiz ətraf mühit və yaşıl artım ölkəsi” hədəfinin reallaşmasına töhfə verəcəyini bəyan edib. Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda bərpa olunan enerji mənbələri və batareya enerji saxlanc sistemləri sektoruna özəl investisiyaları cəlb edəcək. Hazırda Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi beynəlxalq investorlara kredit zəmanətlərinin verilməsi imkanlarını nəzərdən keçirir, ölkədəki maliyyə vasitəçiləri isə maliyyələşdirmə qaydalarının sadələşdirilməsi və iqlim investisiyaları risklərinin azaldılması üçün dəstək alacaq.

Hədəf prioritetlərindən biri dənizdə külək enerjisinin istehsalı infrastrukturlarının qurulmasıdır. Həmçinin, 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri infrastrukturunun genişləndirilməsi, “yaşıl hidrogen” istehsalı və digər bərpa olunan sahələrə investisiyalar təşviq olunacaq.

Ümumilikdə, Dünya Bankı 2027-ci ilədək ölkəmizdə 8 külək və Günəş elektrik stansiyalarının qurulması və enerji sisteminə inteqrasiyası məqsədilə maliyyə dəstəyini göstərəcək. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerji mənbələrinə sərmayələrin yönəldilməsi, “ağıllı şəhər və ağıllı kənd” konsepsiyalarının tətbiqində “yaşıl texnologiyalar”ın və “yaşıl enerji zonası” layihələrinin icrasında da yaxından iştirakını etmək marağını ifadə edib. DB, həmçinin, bərpa olunan enerjinin ixracında və regional “yaşıl enerji” dəhlizinin yaradılmasımnda da maliyyə təminatçısı olmaq niyyətini bəyan edib.

***E.CƏFƏRLİ***

# Orta Dəhlizdə Ortaq Hədəflər

## “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının iclasında yeni fəaliyyət planı müəyyənləşib

Bakıda keçirilən “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyası (TBNM BA) işçi qrupunun iclasında Orta Dəhlizdə daşınmaların həcminin artırılması üçün mövcud infrastrukturların modernləşdirilməsi və yeni logistika qovşaqlarının tikintisi, dəhliz üzərində yerləşən ölkələrin nəqliyyat-logistika şəbəkələrinin daha sıx əlaqələndirilməsi, rəqəmsal idaretmənin qurulması və digər məsələlər müzakirə olunub. 10 ölkənin dəmir yolu administrasiyası və nəqliyyat şirkətlərinin yüksək səviyyəli rəsmilərinin iştirak etdiyi tədbirdə bildirilib ki, Orta Dəhliz son illərdə qlobal əhəmiyyətli yükdaşımalarda dayanmadan əhəmiyyətini artırır. Regionda dəyişən geosiyasi fraqmentasiyalar bu marşruta olan tələbi daha da artırır ki, nəticədə sürətli yük axınının təmin edilməsi üçün əməliyyatların səmərəliliyinin yüksəldilməsi, rəqəmsal alətlərin tətbiqi vacib məsələ kimi ön plana çıxıb. Bu məqsədlə Assosiasiya üzvləri 2025-ci il və qarşıdakı illərə dair yeni strateji hədəfləri müəyyənləşdirmək qərarına gəlib.

İşçi qrupu ilə yanaşı, “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağı da keçirilib ki, tədbirdə yuxarıda qeyd edilən hədəflər ətrafında müzakirələr aparılıb. Azərbaycan, Gürcüstan, Qazaxıstan, Ukrayna, Türkiyə, Çin, Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumıniyanın müvafiq qurumlarının nümayəndələri marşrutun potensialından səmərəli istifadə, daha çox yük axınının cəlb olunmasının zəruriliyi, gömrük tarifləri və digər texniki məsələlər haqqında təkliflər irəli sürüblər. Qeyd edək ki, “Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropa ölkələrinə qədər uzanan böyük bir nəqliyyat arteriyasıdır.

### Azərbaycan Orta Dəhlizdəki infrastrukturlarını modernləşdirib

“Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının gündəliyində yer alan əsas prioritetlərdən biri Orta Dəhlizlə daşınan yüklərin həcmini artırmaq üçün infrastrukturu daha da inkişaf etdirməkdir. Bu plana uyğun olaraq, dəhlizin bir çox coğrafiyalarında əsaslı yenidənqurma işləri aparılıb, Mərkəzi Asiya bölgəsində dəmir yolu və liman infrastrukturları müasirləşdirilib, digər nəqliyyat xətləri ilə birləşdirilib. Qazaxıstan “Trans-Xəzər”də zəruri nəqliyyat infrastrukturlarını yeniləşdirib. Məngistay vilayətində uzunluğu 64 kilometr olan Kurık və Jetıbay kəndlərini birləşdirən respublika əhəmiyyətli yolun əsaslı təmirini başa çatdırıb. Kurik limanı Azərbaycanın Beynəlxalq Dəniz Limanı ilə əlaqələndirilib. Aktau ilə yanaşı, həmin limandan daşınan beynəlxalq yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Limanına,oradan isə Gürcüstan,Türkiyə və Avropa ölkələrinə göndərilməkdədir.

Orta Dəhliz ailəsinin digər üzvü Özbəkistan da öz nəliyyat infrastrukturlarını yeniləyərək şaxələndirmədə fəal rol alır. Bir müddət əvvəl Özbəkistan-Qırğızıstan-Çin yeni dəmir yolunun inşası razılaşdırılıb və bu layihənin icrası “Avrasiya Marşrutu”nun rolunun artırılmasına hesablanıb. Eləcə də “Tacikistan Dəmir Yolları” nəqliyyatın səmərəli işləməsi üçün infrastrukturu inkişaf etdirmək, təkmilləşdirmək, optimal nəqliyyat marşrutları, kommunikasiyalar qurmaq yönündə tədbirlər həyata keçirməkdədir. Türkiyə Dövlət Dəmir Yolları da Orta Dəhlizdə yükdaşımaları artırmaq üçün öz səylərini gücləndirməkdədir.

Layihənin yaradıcılarından biri olan Azərbaycan Orta Dəhlizə inteqrasiya istiqamətində fasiləsiz infrastrukturları yeniləyib, Bakı-Tbilisi-Qars dəmir yolu xətti modernləşdirilib, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücü artırılıb, qonşu ölkələrlə nəqliyyat bağlantılarının çevikliyi təmin olunub.




### 2025-ci il üçün sərfəli tarif dərəcələri müəyyənləşir

Orta Dəhliz ailəsinin 2025-ci ildə planlaşdırdığı hədəflərdən biri də tarif dərəcələrinə düzəlişlərdir. Tərəflər hazırda nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması üçün stimullaşdırıcı mexanizmlərin tətbiqini nəzərdən keçirir. Həmin mexanizmlər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarında əməliyyatlar və gömrük prosedurlarının asanlaşdırılmasını, sərfəli tariflərin tətbiqini nəzərdə tutur. Ötən ilin sonlarında Orta Dəhliz boyu “Bir pəncərə” prinsipindən istifadə edilməsi, tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanması məqsədilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri, eləcə də Ümumdünya Gömrük Təşkilatının və Türk Dövlətləri Təşkilatının rəhbərliyi, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının nümayəndələri bir araya gələrək güzəştli tarif dəhlizinin yaradılmasına razılqılarını bəyan ediblər.

Azərbaycan həmin razılaşmadan irəli gələn tələblərə qısa bir müddətdə əməl edərək Transxəzər Gömrük Tranzit Portalını istifadəyə verib. Digər ölkələr də eyni elektron resursların yaradılmasını yaxın vaxtlarda başa çatdırmağı planlaşdırır. Nəticədə bu elektron arxitektura tarif dərəcələrinin səmərəliliyinin təmin edilməsində mühüm rol oynayacaq.

Orta Dəhliz assosiasiyasının prioritetlərindən biri də Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili və fider gəmilərin yüklənməsinin təmin edilməsidir. Bu layihə də faktiki olaraq rəqəmsal idarətmə modelinin tərkib hissəsidir və dəniz nəqliyyatında bütün proseslərin sürətli internet bağlantısı ilə həyata keçirilməsinə xidmət edir. Bakı iclasında həmin həllərə nail olmaq üçün saziş layihəsi razılaşdırlıb.

“Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu” tərəf-

### Vahid rəqəmsal idarəetmənin yaradılması

Assosiasiya üzvlərinin digər hədəflərindən biri Orta Dəhlizdə rəqəmsal platformanın qurulması və bütün əməliyyatların vahid rəqəmsal pəncərədən idarə olunmasıdır. Tərəfdaş ölkələr hesab edir ki, rəqəmsal texnologiyaların tətbiqi yolu ilə daşınmalarda şəffaflıq və səmərəlilik yaxşılaşacaq, malların daşınma və çatdırılma nöqtələridəki intensivlik artacaq, nəqliyyat-tranzit xərcləri azalacaq. Bu prinsipə əsasən, rəqəmsallaşma haqqında saziş layihəsinin hazırlanması və rəqəmsal landşaftın tezliklə formalaşmasının təmin edilməsi nəzərdə tutulur.

daşlarının “Middle Corridor via the Caspian Sea” (Xəzər dənizi vasitəsilə Orta Dəhlizə) mövzusunda keçirilən forumunda isə transmilli şirkətlərin təmsilçiləri, iş adamları, logistika, tranzit, nəqliyyat və daşımaçılıq sahələrində fəaliyyət göstərən qurumların rəhbərləri Orta Dəhlizdə perspektiv planları nəzərdən keçiriblər. Ümumilikdə, bu tədbirlərin yekun məqsədi Orta Dəhlizin müasir nəqliyyat coğrasiyasında mövqeyini daha da gücləndirməyə xidmət edir.

***E.CƏFƏRLİ***

# Zəngəzur dəhlizinə maneə - “yeni yol”

Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prosesi özündə mühüm məqamları ehtiva edir. Prosesdə sülh sənədinin razılaşması və sənədin imzalanması üçün real zəminin formalaşdırılması nəzərdə tutulur. Sülh sənədi ilə bağlı məqam demək olar ki, aydındır - müzakirəsinin aparıldığı 17 müddəanın 15-i razılaşdırılıb. Razılaşdırılmayan məqamlar isə bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaq və başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Eyni zamanda, İrəvan Konstitusiyasında dəyişiklik etməli, Azərbaycana qarşı qondarma iddialarından rəsmən əl çəkməli, ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı müraciət etməli, Zəngəzur dəhlizinin açılmasını təmin etməlidir. Məhz bu detallar sülhün zəminini formalaşdıracaq ki, bu da regionda yeni münasibətlərin inkişafına rəvac verəcək.

### Sülh pərdəsi arxasında gizlənməklə...

Təəssüfləndirici haldır ki, Ermənistanın siyasi hakimiyyəti sülh məsələsini siyasi spekulyasiya vasitəsinə çevriblər. Nikol Paşinyanın sülh prosesi, eyni zamanda, sülh zəmini yaradacaq məsələlərlə bağlı açıqlamaları belə mənzərə formalaşdırır ki, Ermənistan prosesin inkişaf etməsində maraqlı deyil - sanki Paşinyan sülh sazişi ilə bağlı mübahisəli məsələlərin həlli prosesində yenidən durğunluq yaratmağa çalışır. O, sülh pərdəsi arxasında gizlənməklə prosesi yubadır - dildə sülh deyir, əməldə isə fərqli addımlar atır. Təbii ki, burada da onun özünün həm daxili auditoriya ilə bağlı problemləri, həm də erməni xisləti özünü bariz şəkildə göstərir.

### Erməni baş nazirin “nağılları”...

Məsələn, bir müddət öncə Paşinyan bildirmişdi ki, Ermənistan Naxçıvanla Azərbaycanın qərb hissəsi arasında maneəsiz dəmir yolu əlaqəsinin əleyhinə deyil, lakin prosesin Ermənistanın yurisdiksiyası çərçivəsində inkişaf etməsini istəyir. Amma sonradan o, Ermənistan ərazisindən Naxçıvana yolun açılmasını İrandan keçəcək alternativ yollarla eyniləşdirir - Paşinyan yenidən məsələnin mahiyyətini dəyişməyə cəhd göstərir.

Paşinyan qeyd edir ki, Ermənistan-Azərbaycan sərhədində üç sərhəd-keçid məntəqəsinin açılması (layihə 2022-ci ildən dövriyyədədir) Azərbaycanın yük və minik avtomobillərinin Ermənistan ərazisinə daxil olmasına, məsələn, Naxçıvana və Türkiyəyə getməsinə imkan verəcək. Baş nazir iddia edib ki, bu qərarlar Ermənistan Nazirlər Kabineti tərəfindən təkcə Azərbaycanın mövqeyinə və imtinasına görə qəbul edilməyib və bir-iki həftə ərzində qəbul edilə bilər.

“Naxçıvana daxil olmaq üçün infrastruktura gəlincə, bunu da kifayət qədər tez etmək olar. Yük maşınları Kornidzor keçid məntəqəsi vasitəsilə Laçın-Kornidzor hissəsi ilə Ermənistan ərazisinə daxil ola, Ermənistan-Türkiyə sərhədinə qədər hərəkət edə və Marqara keçid məntəqəsindən Türkiyəyə daxil ola bilər”, - deyə Paşinyan bildirib.

Onun fikrincə, eyni şey əks istiqamətdə də doğrudur. “Bu cür tranzit yüklərin daşınması üçün lazım olan fiziki infrastruktur hazırdır, yalnız Bakı və Ankara razılaşarsa, de-yure qərar qəbul etmək qalır”, - deyə o əlavə edib.

Paşinyan faktiki olaraq Naxçıvana fərqli bir “yol” təklif edir və Zəngəzur dəhlizi məsələsini gündəmdən çıxarmağa çalışır. Yuxarıda qeyd edilən erməni xisləti məhz burada özünü açıq şəkildə ortaya qoyur - erməni baş nazir Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyini bilir. Xatırladaq ki, bu ilin yanvarında Prezident İlham Əliyev yerli talekanallara müsahibəsində bu məsələyə bir daha aydınlıq gətirmişdi: “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur”.

Göründüyü kimi, Azərbaycanın mövqeyi dəyişməz və qətidir. Paşinyanın “təklif etdiyi” yollar isə sadəcə məsələnin ləngiməsinə xidmət göstərən ucuz variantlardır.




### Paşinyan Zəngəzur dəhlizini niyə İran yolu ilə paralelləşdirir?

Yuxarıda da vurğulandığı kimi, Paşinyan ortaya çıxan bu “yeniliyi” fərqli aspektlərə yönəltməyə çalışır - hətta prosesi İran-Azərbaycan kommunikasiya əlaqəsinə paralelləşdirmək istəyir. Paşinyan iki ölkə arasındakı kommunikasiyalar haqqında yazdığı məqaləsində bildirir ki, Ermənistan indiki mərhələdə Zəngilan-Mehri-Ordubad və əks istiqamətdə dəmir yolu ilə yükdaşımaların açılmasını təklif edib - “eyni zamanda, biz yazılı şəkildə heç bir tərəfin suverenliyinə, yurisdiksiyasına və ərazi bütövlüyünə xələl gətirməyən variant təklif etmişik. Əgər Bakının narahatlığı Naxçıvana və Naxçıvandan əks istiqamətdə yüklərin etibarlı daşınmasını təmin etməkdirsə, deməli, bu məsələ öz həllini tapıb. Bircə Azərbaycanın “hə” deməsi qalır”.

“Azərbaycan bildirir ki, Ermənistan Naxçıvana yol verməsə, İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycanın qərb rayonları ilə Naxçıvan əlaqəsini təmin edəcəklər... Aydınlıq üçün onu da bildiririk ki, Ermənistan Respublikası da İranın təklif etdiyi eyni hüquqi şərtlərlə tranzitini təmin etməyə hazırdır. İrandan tranzit üçün hər hansı maneə varmı? Axı biz də İranla eyni hüquqi şərtlərlə eyni tranziti təmin etməyə hazır olduğumuzu deyirik. Qarşılıqlılıq prinsipinə əsaslanaraq, biz tranzit prosedurlarının bəzi sadələşdirilməsinə və avtomatlaşdırılmış mexanizmlərin tətbiqinə razılıq verməyə hazırıq”.

Göründüyü kimi, Paşinyan indi də bir başqa “hava” çalır. Niyə indiyə qədər Paşinyan bu yolları “eyniləşdirmirdi”? Bəlkə, bu fikir Paşinyanın “qulağına pıçıldanıb”? Təsadüfi deyil ki, bir müddət öncə Ermənistanda üçgünlük səfərdə olan Tehran nümayəndə heyətinin tərkibində İranda yaşayan ermənilərə üstünlük verilmişdi. Görünən budur ki, yeni regional reallığa bu kimi təsirlər etməklə Zəngəzur dəhlizinin açılmasına mane olmaq istəyənlər var.

Amma bu mümkün deyil. Azərbaycan son sözünü deyib - Zəngəzur dəhlizi açılmalıdır və nəzərə alsaq ki, bu dəhliz bölgə üçün mühüm imkanlar vəd edir, nə Ermənistanın, nə də bir başqa ölkənin bu layihəyə mane olmaq arzusu anlaşılan deyil. Ortada bir “səbəb” qalır: qısqanclıq və məkrli xislət...

***SADİQ***

# Avropanın yaşaması üçün real şans...

## Türkiyə "köhnə qitə"ni "reanimasiya"dan xilas edə bilər

2025-ci il gözlənilən kimi siyasi proseslərə mühüm dinamizm və rəngarənglik qazandırıb. Ötən ilin sonundan başlayaraq yeni nizamın formalaşması istiqamətində davam edən hadisələr artıq müəyyən mənada öz məcrasını tapıb. Bir çox ekspertlər artıq qarşıdakı dövrlə bağlı aydın proqnozlar səsləndirirlər. Yeni zamanda yeni beynəlxalq oyunçuların siyasət səhnəsinə qədəm qoyacağını bildirən siyasi ekspertlər qlobal, ən əsası isə fundamental dəyişikliklər barədə xəbərdarlıq edirlər. ABŞ - Rusiya münasibətlərinin inkişaf axarı, Ukraynanın çabaları, Aİ-nin dalana dirənməsi Qərbin indiyə əqədər apardığı siyasi xəttin uğursuzluğunu təsdiqləyir. Amma diqqət yetirsək, Yaxın və Orta Şərqdə baş verən bəzi hadisələr müsbət nəticələrlə yekunlaşıb - məsələn, Suriya hadisələri mühüm nəticələr formalaşdırıb və bu nəticələrin ortaya çıxmasında Ankaranın təsirləri istisna edilmir. Başqa sözlə, son aylarda siyasi proseslərin önünə keçə bilən dövlətlərdən biri məhz Türkiyədir. Təsadüfi deyil ki, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çelik martın 3-də keçirdiyi mətbuat konfransında bildirmişdi ki, İkinci Dünya müharibəsindən sonra formalaşan siyasi nizam başa çatır. O, Trampla ukraynalı həmkarı arasında yaşanan gərginliklərə toxunaraq, artıq strateji fikir ayrılıqlarının müşahidə olunduğunu diqqətə çatdırmışdı: "ABŞ-ın yaşadığı problemlərin həlli Türkiyədədir. Aİ-nin isə siyasi dividendlərini qorumaq üçün Türkiyədən başqa yolu yoxdur".



### Avropa bütün parametrlər üzrə Türkiyəyə ehtiyac duyur...

Bəli, bu mühüm siyasi tezis artıq müəyyən bir müddətdir ki, siyasət adamları tərəfindən açıq kontekstdə təsdiqlənir. Ankaranın 2020-ci ildə baş verən 44 günlük müharibədən sonra regional lider statusunu artırdığı qəbul olunur - Azərbaycanla birgə formalaşdırdığı yeni təhlükəsizlik arxitekturası Türkiyəni olduqca mühüm yerlərə daşıyan amillər sırasında qeyd edilir. Təsadüfi deyil ki, ABŞ ilə Rusiya ikitərəfli münasibətlərinə məhz İstanbulda aydınlıq gətirir, Ukrayna prezidenti simvolik də olsa, başının üstündəki "çətirin" ünvanını nişan verir. Açıq avantüra ilə məşğul olan "köhnə qitə" kontingentindən fərqli olaraq Ankara prosesləri ayıq başla təhlil edir. Son illərdə artan hərbi gücü, dünyanın yeni enerji xəritəsində tutduğu mövqe, tranzit yolları üzərindəki strateji mövqeyi Ankaranın bütün dünya üçün cəlbediciliyini artırıb. Artıq Avropanın Türkiyəyə duyduğu ehtiyac bütün parametrlər üzrə özünü göstərməkdədir. ABŞ-ın "hərbi himayədarlığı altından" çıxmaq üzrə olan Avropa özünün yeni mərhələdə təhlükəsizliyini təmin etmək üçün Kiçik Asiya yarımadasına üz tutmalıdır. Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan səfirlərlə iftar proqramında çıxışı zamanı Avropaya xəbərdarlıq edib. Ölkə lideri qeyd edib ki, Türkiyənin Avropa İttifaqına üzvlük prosesi strateji prioritetdir: "Avropanın təhlükəsizliyi Türkiyəsiz mümkün deyil. Türkiyənin layiq olmadığı Avropanın qlobal aktor olaraq mövcudluğunu davam etdirməsi getdikcə mümkünsüz hala çevrilir".

Onun sözlərinə görə, bu gün dünyada "meşə qanunları" hökm sürür: "Təəssüf ki, güclü olanların zəifləri əzməsi nəticəsində yeni problemlər meydana çıxır. Bunun qarşısı alınmasa, hərbi və siyasi partlayışlar ola bilər. Problemlərin həllini zamana buraxaraq, gözlərimizi yumaraq, təhlükələrə laqeyd yanaşaraq heç bir yerə çıxa bilmərik".

### Qərb "dirçəlmək" istəyirsə... "Yol" Ankaradan keçir...

Ankaranın "Avropa ailəsi"nin tamhüquqlu üzvünə çevrilməsi bütün kontekstlərdə Qərbin işini asanlaşdıracaq:

- Münaqişə başlanan gündən hər iki tərəf ilə eyni məsafəni qoruyan Ankara tənzimləmə prosesində hər hansı bir maraqdan çıxış etmir;
- NATO-da ABŞ-dan sonra ikinci güc sayılan Türkiyə ilə ziddiyyət Vaşinqtonun da mənafeyi ilə uzlaşmır;
- Ukraynaya yaxın regionun aparıcı dövləti olaraq Türkiyə Kiyevin təhlükəsizlik qarantına çevrilmə imkanlarına malikdir;
- Nəhayət, Azərbaycanın müəllifi olduğu Orta Dəhlizin yeni seqmenti sayılan Zəngəzur dəhlizi vasitəsilə Avropa Şərqə doğru uzanan iqtisadi yolun "yolçusuna" çevrilmə şansı qazanır.

Göründüyü kimi, Türkiyənin Aİ-yə qatılması həm siyasi, həm hərbi, həm də iqtisadi platformalarda "köhnə qitə"nin "reanimasiyadan" çıxmasına şərait yarada bilər. İstanbul isə münaqişə tərəflərinin üz-üzə oturub müzakirə aparacağı ən ideal məkanlar sırasındadır. Prezident Ərdoğan çıxışında bu məqama da toxunub ki, Rusiya ilə Ukrayna arasında sülh və razılaşma mümkündür. O bildirib ki, danışıqlar prosesinə hər iki tərəf iştirak etməlidir: "Mümkün həllə nə Rusiyasız, nə də Ukraynasız nail olmaq mümkündür".

### BMT-də islahatlar: Azərbaycan və Türkiyənin illərdir irəli sürdüyü tezis...

Vurğulayaq ki, Prezident Ərdoğan çıxışında dünyanın ən böyük strukturu sayılan BMT-də gözlənilən islahatlara da toxunub. O bildirib ki, BMT Təhlükəsiz Şurasında (TŞ) müsəlman ölkəsi də olmalıdır. Dövlət başçısı qeyd edib ki, təşkilatda veto hüququna malik müsəlman ölkəsinin də təmsil olunmasına ehtiyac var: "Bu, zərurətdir".

Ərdoğanın sözlərinə görə, müsəlmanlar dünya əhalisinin dördə birini təşkil edir: "Müsəlmanlar artıq qərar qəbul etmə prosesində iştirak etməlidirlər".

Bəli, yeni nizamda BMT müəvisində islahatlarla bağlı həm Türkiyə, həm də Azərbaycan dəfələrlə açıq mətnlə çıxış edib. Prezident Ərdoğan hətta BMT Baş Assambleyasının tribunasından "Dünya beşdən böyükdür!", - deyə fikrini ifadə etmişdi. Türkiyə Prezidenti qeyd etmişdi ki, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. "Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil", - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Azərbaycan da hər zaman BMT TŞ-nin yenidən formalaşdırılması ilə fikir bildirən ölkələrdəndir. Dövlətimizin bununla bağlı mövqeyi isə aydın və məntiqlilidir. Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb. Dövlət başçısı bildirib ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir: "Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Hesab edirəm ki, bu, ədalətli olar".

### Sülh yeni mənzərə yaradacaq...

Təbii ki, yeni dönəmdə ən mühüm siyasi həlqələrdən biri də Cənubi Qafqazda sülhün formalaşması, münasibətlərin normallaşmasıdır. Demək olar ki, 2022-ci ilin martından etibarən davam edən sülh prosesi müəyyən mənada son mərhələyə qədəm qoyub. Artıq sülh sənədinin müddəalarının əksər hissəsi razılaşdırılıb. Ermənistanın nümayiş etdirəcəyi siyasi iradə bölgədə həm siyasi vəziyyəti dəyişəcək, həm iqtisadi yeniliklərə yol açacaq, həm də qonşu dövlətlərlə münasibətlərdə yeni parametrlər formalaşdıracaq. Sülh sənədinin imzalanması İrəvanın Bakı ilə yanaşı, yeni dövrün mühüm qlobal aktorlarından birinə çevrilən Türkiyə ilə də münasibətlərində əsaslı ştrixlər vəd edir. Prezident Ərdoğan bu məsələyə də toxunaraq qeyd edib ki, Cənubi Qafqazda sabitlik üçün səylərimizi davam etdiririk. O bildirib ki, Türkiyə Ermənistanla münasibətlərin normallaşdırılmasını davam etdirir: "Eyni zamanda, Azərbaycan - Ermənistan sülh sazişinin imzalanmasına çalışırıq".

*Pərviz SADAYOĞLU*

# Ermənistandakı diplomatik "şeytan yuvası"na "əl gəzdiriləcək"

## Tramp administrasiyası "qaranlıq fəaliyyətləri" ləğv edir

Ötən ayın sonunda ABŞ Prezidenti Donald Trampın Dövlət Departamentinin işçilərinin və ölkəsinin diplomatik nümayəndəliklərinin sayını kəskin şəkildə azaltmağı, həmçinin xarici siyasət idarəsinin səlahiyyətlər dairəsini daraltmağı planlaşdırması ilə bağlı xəbər yayıldı. Qeyd edək ki, "Politico"nun yaydığı xəbərdə Tramp Administrasiyasının, həmçinin demokratiyanın təşviqi, insan haqlarının müdafiəsi və elmi-tədqiqatların dəstəklənməsi üçün cavabdeh olan departamentlərin ixtisar edilməsini, yaxud ləğv edilməsini nəzərdə tutduğu bildirilirdi. Qəzetin məlumatına görə, ABŞ Dövlət katibi Marko Rubio Amerika diplomatik nümayəndəliklərinin əhəmiyyətli sayda ixtisar edilməsinə razıdır. "Bu dəyişikliklər Dövlət Departamentində tarixi yenidənqurma ilə nəticələnəcək", - deyə bildirilib. Bu tədbirlərin ABŞ Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) və onun işinə nəzarət edən sahibkar İlon Maskın təsiri ilə hazırlandığı da vurğulanıb.

### Dövlət Departamentində və diplomatik korpuslarda ixtisarlar

Qeyd edək ki, Trampın Dövlət Departamentinin tərkibində "ixtisar" aparması prosesi müəyyən müddətdir ki, artıq davam edir. ABŞ Prezidenti Donald Trampın təyin etdiyi Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbərliyi birinci mərhələdə qurumun 2 min əməkdaşının işdən çıxarılması ilə bağlı elektron məktublar göndərmişdi - "The New York Times" qəzeti yazmışdı ki, minə qədər agentlik əməkdaşı məzuniyyətə buraxılıb. Qərar Trampın hökumət xərclərini azaltmaq üçün apardığı genişmiqyaslı kampaniyanın bir hissəsidir. O, Ağ Evə qayıtdıqdan sonra, xarici yardımlar 90 gün ərzində donduruldu. Paralel olaraq Ağ Ev USAID-in dünya üzrə 10 mindən çox əməkdaşının 97 faizini işdən çıxaracağını bəyan etdi. İşini itirməyən yalnız 294 mütəxəssis olacaq.

Vurğulandığı kimi, proses artıq davam edir və gələn xəbərlərdə ABŞ hökumətinin işdən çıxarılan bir çox əməkdaşının BMT-nin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasına (UNHRC) uz tutduğu bəlli olub. Bu da təsadüfi deyil. Tramp ötən ay ölkəsinin BMT-nin İnsan Hüquqları Şurasından və BMT-nin Fələstin Qaçqınlarına Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyindən (UNRWA) çıxması barədə icra fərmanı imzalayıb.



### Eyni aqibət gözləyir...

Təbii ki, prosesin digər ölkələrdə yerləşən və heç bir işə yaramayan, əksinə, vaxtilə Bayden administrasiyasının apardığı uğursuz siyasətin "dəyənəyi" kimi nəzərdə tutulan diplomatik korpuslara da çatacağı gözləniləndir. Nəzərə alsaq ki, Tramp hakimiyyəti ölkənin xərclərini maksimum məhdudlaşdırmağa çalışır, onda ilk "hədəf" ABŞ-ın Ermənistandakı səfirliyi olacaq. Çünki ABŞ-ın regionda 2 minlik kontingentdən ibarət ən böyük səfirliyi məhz Ermənistanda yerləşir. Hər zaman Ermənistanın "siyasi vaciblik indeksi"nin hansı dərəcədə olduğu müəmması sual doğurub - ABŞ kimi bir siyasi güc Cənubi Qafqazda məhz Ermənistanı niyə özünün "diplomatik səngəri"nə çevirib?

Təbii ki, bunun USAID ilə birbaşa əlaqəsi var. Bayden hakimiyyəti özünün USAID-in əli ilə reallaşdırdığı və birbaşa ABŞ-ın milli maraqlarına zidd olan planlarını bu kimi diplomatik korpusların əməkdaşlarının əli ilə icra edirdi. Regionlarda qeyri-stabilliyin formalaşdırılması, kəşfiyyat fəaliyyətinin aparılması, dövlətlərin daxili işlərinə "əl uzadılması" kimi işlər bu kimi səfirliklər üzərindən aparılırdı. Bu mənada, Bayden hakimiyyətinin "diplomatik şeytan yuvasına" çevrilmiş ABŞ-ın İrəvandakı səfirliyini də eyni aqibət gözləyir...

*PƏRVİZ*

# ABŞ təkid edir, Ukrayna razılaşır...






Fevralın 28-də Ağ Evdə Oval kabinetdə Volodimir Zelenski ilə Donald Tramp arasında qalmaqallı görüş dünya gündəminin mərkəzində qalmaqda davam edir. Görüşdə yaşanan insidentin nəticəsi olaraq Zelenski ABŞ səfərini yarımçıq qoyub və beləliklə də, Ukraynadakı nadir torpaq metallarının işlənməsinə dair müqavilə imzalanmayıb.

Burada söhbət yalnız iki dövlət arasında hansısa bir sənədin imzalanıb-imzalanmamasından getmir. Bəhs olunan müqavilə Ukrayna üçün adi bir sənəd deyil, müharibədə böyük itkilərə məruz qalan ölkənin gələcək taleyi baxımından müstəsna önəmə malikdir. Bəs Oval kabinetdə yaşananlardan sonra ABŞ-Ukrayna münasibətləri hansı istiqamətdə inkişaf edəcək? Ukrayna ABŞ-ın dəstəyi olmadan müharibəni davam etdirə biləcəkmi?

## Zelenski Oval kabinetə qayıda biləcəkmi?

Ağ Evdə müqavilənin imzalanmaması ikitərəfli əlaqələrdə ciddi çatlar yaradıb. Ağ Evin yeni administrasiyasının rəsmilərindən gələn açıqlamalarda görüşdə Zelenskinin Trampla ixtilafa girməsi sərt şəkildə qınanılır. “Zelenski sülh sazişinin detallarını müzakirə etmədiyi müddətcə Oval kabinetə qayıda bilməyəcək”. Bunu ABŞ-ın vitse-prezidenti Cey Di Vens “Fox News”a müsahibəsində deyib. “Siz sülh sazişinin detallarını müzakirə etməkdən imtina edərək Oval kabinetə və ya başqa bir yerə qayıda bilməzsiniz”, - deyə Vens vurğulayıb.

O, daha əvvəl bildirib ki, Zelenski Ağ Evdə Donald Tramp ilə görüşmək istəyib, lakin bu təklif rədd edilib. Vitse-prezidentin fikrincə, Tramp yalnız o zaman Zelenski ilə yenidən danışmağa hazır olacaq ki, o, Rusiya ilə münaqişənin həlli üçün real istək nümayiş etdirsin. Vens, həmçinin vurğulayıb ki, Ukraynanın müharibəni davam etdirmək üçün kifayət qədər insan resursu yoxdur, ABŞ-ın isə bu proses üçün nə yetərincə silahı, nə də maliyyə vəsaiti mövcuddur.

Eyni zamanda, ABŞ mətbuatında da Oval kabinetdə yaşananlarla bağlı kəskin ruhlu məqalələr dərc olunur, Zelenski açıq-aşkar ABŞ-ın yardımlarını unutmaqda günahlandırılır. “Zelenski Trampla mübahisə etdiyinə görə üzr istəməli və ya öz postundan istefa verməlidir”. Bu barədə “Washington Post” qəzetində dərc olunan məqalədə deyilir. “Volodimir Zelenski üzr istəsə, Donald Tramp nadir metallarla bağlı saziş imzalamaq üçün onu Ağ Evə dəvət edəcək və hər şey bağışlanacaq”, - deyə məqalədə bildirilir.

## Hərbi yardımların dayandırılması gündəmdə

Ağ Evdə baş verənlər Ukraynaya ABŞ-ın hərbi yardımlarının dayandırılması məsələsini gündəmə gətirib. Tramp Ukraynaya bütün hərbi yardımların dayandırılmasına dair əmr imzalayıb. Ağ Evdən bununla bağlı yayılan məlumatda bildirilir: “Prezident açıq şəkildə sülhü hədəflədiyini elan edib. Biz tərəfdaşlarımızın da bu məqsədə sadiq qalmasını istəyirik. Biz yardımımızı dayandırırıq və onun həllə töhfə verməsini təmin etmək üçün nəzərdən keçiririk”, - deyə Ağ Ev rəsmisi bildirib.

Müharibənin əvvəlindən ABŞ-ın Ukraynaya dəstəyinin həcmi kifayət qədər böyük olub. Pentaqondan bildirilib ki, Baydenin prezidentliyi dövründə ABŞ başqa avadanlıqlarla yanaşı, “Patriot” hava hücumundan müdafiə sisteminin üç batareyasını və 12 NASAMS hava hücumundan müdafiə sistemini Kiyevə verib. Bundan əlavə, Ukraynaya 40-dan çox HIMARS MLRS, 200-dən çox 155 mm-lik haubitsa və 3 milyondan çox 155 mm-lik artilleriya mərmisi, 7 mindən çox yüksək dəqiqliyə malik 155 mm-lik mərmi göndərilib. Pentaqonun tərtib etdiyi siyahıya həmçinin 300-dən çox “Bradley” piyada döyüş maşını, 31 “Abrams” tankı və 1,7 minə yaxın müxtəlif zirehli transportyor daxildir.

ABŞ-ın hərbi yardımı kəsməsindən sonra Ukraynanın cəbhədə mövqelərinin əhəmiyyətli dərəcədə zəifləyəcəyi, müqavimət gücünün azalacağı heç kəsdə şübhə doğurmur. “ABŞ-ın hərbi yardımı kəsildikdən sonra Ukrayna hazırkı döyüş tempini bir neçə həftə və ya uzağı yayın əvvəlinədək saxlaya biləcək”. CNN telekanalı bu barədə adının açıqlanmasını istəməyən avropalı məmura istinadla məlumat yayıb.

## Ümidlər sonda ölür

Ümidlər sonda ölür, deyirlər. Sözügedən müqavilənin imzalanmasına bəslənən ümidlər də hələ tamamilə aradan qalxmayıb. “Vaşinqton və Kiyev arasında Ukraynanın faydalı qazıntıları ilə bağlı razılaşma mümkün olaraq qalır”. Bunu Prezident Tramp Ağ Evdə jurnalistlərə açıqlamasında deyib. “Bizə nadir torpaq metalları lazımdır”, - deyə o əlavə edib. Tramp saziş barədə Senat və Nümayəndələr Palatasının birgə iclasında danışacağını da bildirib.

Zelenskinin müqavilə ilə bağlı danışıqları yenidən başlamaq üçün nə etməli olduğu barədə sualı isə Amerika lideri belə cavablandırıb: “Məncə, o, daha çox minnətdar olmalıdır. Çünki ABŞ hər vəziyyətdə onu dəstəkləyib. Biz Avropadan daha çox yardım etdik. Avropa isə bizdən daha çox yardım etməli idi”.

## Rəsmi Kiyevdən “ən qısa zamanda imzalayacağıq” açıqlaması

“Ukrayna və Amerika Birləşmiş Ştatları arasında mineral ehtiyatlar sazişi ən qısa zamanda imzalanacaq. Bununla bağlı artıq hər iki ölkə arasında qarşılıqlı anlaşma var”. Bu barədə Ukrayna Prezident Ofisi Aparatının rəhbəri Andrey Yermak teleqram sosial şəbəkə hesabında yazıb.

Onun sözlərinə görə, o, ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü respublikaçı Brayan Fitspatriklə söhbət edib. “Biz ədalətli sülhə doğru irəliləyiş məsələlərini və ABŞ-la mineral ehtiyatlar sazişini müzakirə etdik. Qarşılıqlı anlaşma var, biz dövlətlərimizin liderlərinin qəbul etməli olduğu qərara doğru gedirik”, - deyə Yermak əlavə edib.

Həmçinin, Zelenski də yeni mövqedən çıxış edib. O,“X” sosial şəbəkəsində yazıb ki, Ukrayna bütün tərəfdaşları ilə əməkdaşlığı davam etdirir və sülhün əldə olunmasında ABŞ-ın dəstəyinə çox ümid bəsləyir. “Biz Amerika və avropalı tərəfdaşlarımızla birlikdə işləyirik və ABŞ-ın sülh yolunda dəstəyinə çox ümid edirik. Sülh mümkün qədər tez lazımdır”, - deyə Zelenski martın 3-də axşam saatlarında yazıb.

Prezidentin sözlərinə görə, Ukrayna artıq tərəfdaşları ilə danışıqlar aparıb və yaxın gələcəkdə digər addımları da planlaşdırır. Zelenski, həmçinin qeyd edib ki, hazırda Ukrayna diplomatiyasını bu müharibəni mümkün qədər tez bitirmək üçün həqiqətən də substantivləşdirməyə çalışmaq çox vacibdir. “Bizə əsl sülh lazımdır və ukraynalılar bunu hər şeydən çox istəyirlər, çünki müharibə şəhərlərimizi və qəsəbələrimizi məhv edir. Biz insanlarımızı itiririk. Müharibəni dayandırmalı və təhlükəsizliyi təmin etməliyik”, - deyə Prezident əlavə edib.

## Ali Radanın müraciəti

Bu arada Ukrayna Ali Radası ABŞ Prezidenti Donald Trampa, Konqresə və ABŞ xalqına müraciət edib. Ali Radanın saytında dərc olunan müraciətdə qeyd olunur ki, Ukrayna xalqı sülhü hamıdan çox istəyir və Trampın rolunun, onun sülhməramlı səylərinin hərbi əməliyyatların tezliklə dayandırılması üçün həlledici olacağına inanır.

Rada Trampın danışıqlar prosesinə başlamaq və sülhə nail olmaq yollarını tapmaq təşəbbüslərini alqışlayır. ABŞ ilə xüsusilə faydalı qazıntıların işlənməsi sahəsində strateji tərəfdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanır. “Ukrayna böyük Amerika xalqının Birləşmiş Ştatların qlobal liderliyinin hərtərəfli bərpası istiqamətindəki istəklərinə dərin hörmətlə yanaşır. Eyni zamanda, biz qəti şəkildə inanırıq ki, ABŞ-ın beynəlxalq aləmdə rəhbərliyi azadlıq və demokratiya ideallarının müdafiəsi, beynəlxalq müqavilələrə sadiqlik, müttəfiqlər və dostlarla münasibətlərdə etibarlılıq ilə ayrılmaz şəkildə bağlıdır”, - deyə müraciətdə qeyd edilir.

*Mübariz FEYZİLİ*

# Makron Avropanı məhvə sürükləyir

ABŞ-ın Qərb koalisiyasının təhlükəsizliyinin təminatında oynadığı rol öz mahiyyətini dəyişir. Belə ki, Münhendə keçirilən son təhlükəsizlik konfransında çıxış edən ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens bəyan edib ki, “köhnə qitə” öz təhlükəsizlik arxitekturasını qurmalıdır və daha ABŞ-a arxayın olmamalıdır. Bu nöqteyi-nəzərdən Aİ-də son zamanlar ABŞ-ın nəzarətindən kənar hərbi-müdafiə gücünün formalaşdırılması ilə bağlı müxtəlif versiyalar irəli sürülür.

## Fransa bu versiyanı ortaya atıb

Makron Avropanın müdafiə qabiliyyətini gücləndirmək məqsədilə ölkənin nüvə çəkindirmək qabiliyyətinin Avropa ölkələri ilə bölüşülməsi təklifini irəli sürüb. Qərb KİV-lərinin məlumatında qeyd olunur ki, Fransanın dövlət rəhbəri Avropanın “daha böyük muxtariyyətə” doğru irəliləməsi üçün müdafiə və nüvə çəkindiriciliyi məsələləri ilə bağlı geniş müzakirələr təşkil etmək niyyətindədir.

Qeyd edək ki, Fransa Avropa İttifaqında nüvə silahına sahib olan yeganə ölkədir - Paris hazırda təxminən 290-300 nüvə başlığına malikdir. Fransa öz nüvə silahlarını həm hərbi təyyarələr, həm də sualtı qayıqlar vasitəsilə digər regionlara daşıya bilər.

Makronun komandasına yaxın olan ekspertlər bəyan edirlər ki, ölkə prezidentinin belə bir təklif irəli sürməkdə məqsədi Avropanın müdafiə qabiliyyətini artırmaq və qitənin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Fransanın müdafiə naziri Sebastyan Lekornu da Makronun mövqeyini dəstəkləyib, ancaq nüvə silahının daşınması ilə bağlı hər hansı addımın yalnız prezidentin qərarından asılı olduğunu da bildirib. Makronun bu təklifi həm ölkənin daxilində, həm də Avropanın siyasi ictimaiyyətində ciddi reaksiyaya səbəb olub. Fransanın müxalifət lideri Marin Le Pen nüvə silahının milli suverenliyin əsas elementi olduğunu əsas gətirərək bu silahın paylaşılmasının və ya ötürülməsinin yolverilməz olduğunu vurğulayıb.

Avropaya gəlincə, Aİ-nin bəzi üzv ölkələri Makronun təklifini Avropanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirib. Digərləri isə nüvə silahının paylaşılmasının Avropanın təhlükəsizliyinə mənfi təsir göstərə biləcəyini düşünərək ehtiyatla yanaşıblar.

## Əsas hədəf Avropada hərbi-siyasi güc mərkəzi olmaqdır?

Bir çox ekspertlər Makronun təklifi ilə bağlı müxtəlif fikirlər səsləndirirlər. Bəziləri iddia edir ki, Makronun bu təklifinin arxasında geosiyasi ambisiyalar dayanır. Məsələ ilə bağlı politoloq Asif Nərimanlı “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Makron bu məsələdə öz siyasi maraqlarını güdür: “Bu məsələ yeni deyil. Bu məsələ 2020 və 2022-ci illərdə də gündəmə gəlmişdi. Prezident Makronun bu təklifi Avropanın ümumi təhlükəsizliyini Fransanın çətiri altına almaq və Avropa regionunda ABŞ-ın dayaqlarını zəiflətməkdir. İstər regional, istərsə də beynəlxalq səviyyədə yenidən xüsusi güc mərkəzinə çevrilmək Fransa xarici siyasətinin prioritetlərindən biridir. Hesab edirəm ki, Tramp administrasiyasının Aİ-ni Rusiya-Ukrayna müharibəsinin nizamlanması üzrə danışıqlar prosesindən kənarlaşdırmağa çalışması və Avropanın təhlükəsizliyinə biganə yanaşması Fransanın bu istiqamətdə öz ambissiyalarını həyata keçirməsinə yol açır. Təbii ki, bu günə kimi Avropanın hərbi-müdafiə və hərbi-təhlükəsizliyinin təmin olunmasında ABŞ çox əhəmiyyətli rol oynayıb. Bu, danılmaz faktdır. Amma hazırkı proseslər fonunda, yəni ABŞ-ın bundan sonra Avropanın təhlükəsizliyinə cavabdeh olmayacağı ilə bağlı mövqe sərgiləməsi Avropada ciddi narahatlıq doğurub. Fransa da bu şəraitdən istifadə edib Vaşinqtonun funksiyasını öz üzərinə götürmək niyyətindədir”. Politoloq, həmçinin bu təklifi Rusiyanı Avropaya hücumdan çəkindirmək addımı kimi də qiymətləndirib: “Ancaq bunun nə qədər çəkindirici rol oynayacağı sual altındadır. Fransanın təxmini 300-ə yaxın nüvə başlığı var. Bu, Rusiya və ABŞ ilə müqayisədə kifayət qədər aşağıdır”. A.Nərimanlı bu məqamı da əlavə edib ki, Makronun təklifi ABŞ-a ünvanlanan mesaj kimi də xarakterizə oluna bilər: “Paris bununla demək istəyir ki, Avropa İttifaqı ABŞ-ın təhlükəsizlik çətirindən imtina edə bilər. ABŞ Avropaya artıq lazım deyil. Amma ABŞ-dan imtina etmək o qədər də asan olmayacaq və bu, ciddi nəticələrə gətirib çıxarar”.

## Makronun planı baş tutmayacaq

Hərbi ekspert Ramin Məmmədli isə bildirib ki, Qərbi Avropa ölkələri Fransa ilə bu istiqamətdə ortaq məxrəcə gəlməyəcəklər: “Avropada elə ölkələr var ki, onlar ABŞ ilə hərbi-təhlükəsizlik sahəsində əməkdaşlıq etməkdə maraqlıdırlar. Bəzi Avropa ölkələri isə Rusiya ilə normal münasibətləri var və Ukraynada müharibə bitdikdən sonra Moskva ilə əlaqələri genişləndirmək niyyətindədirlər. Bu baxımdan Fransanın Avropaya hakim olmaq iddiası o qədər də uğurlu olmayacaq”.



Bir qrup ekspertin fikrincə, Makronun təşəbbüsləri Avropanın təhlükəsizliyinə deyil, regionda qeyri-sabitliyin yaranmasına xidmət edir. Onlar belə qənaətə gəliblər ki, Makronun təklifinin arxasında duran əsas məqsəd Avropada gələcək təhlükələrin məsuliyyətini öz ölkəsinin boynundan atmaq və region ölkələrini özünün təhlükəli oyunlarının ortağına çevirməkdir. Bu baxımdan nüvə silahından istifadənin paylanması Avropanı nüvə müharibəsi təhlükəsi ilə üz-üzə qoya bilər. Nəinki Almaniya və Britaniyanın ekspertləri, hətta Fransanın hərbi ekspertləri Makronun təklifini irrasional və qeyri-peşəkar hesab edirlər. Məhz buna görə də Aİ-nin bir çox üzv ölkələri Parisin yanaşmasına müsbət baxmırlar.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı: 5-ci gününün duası

**Allahumməc-əlni fihi minəl-müstəğfirin. Vəc-əlni fihi min ibadikəs-salihinəl-qanitin. Vəc-əlni fihi min övliyaikəl-müqərrəbin. Birə-fətikə ya ərhəmər- rahimin.**
***Tərcüməsi:***
**İlahi, bu gün məni bağışlanmışlardan, sənin fərmanına baş əyən saleh bəndələrindən və yaxın dostlarından qərar ver. Mərhəmətinə and verirəm, ey rəhmlilərin ən rəhmlisi!**




# Sağlam bədəndə sağlam ruh!

## Bədən Tərbiyəsi və İdman Günüdür

Ölkəmizdə idmanın inkişafı ildən-ilə daha geniş vüsət alır. Azərbaycan indi dünyada güclü idman ölkəsi kimi tanınır. Martın 5-i Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günüdür. Bu gün Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən qeyd edilir. Ölkəmizdə Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd olunması isə təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.

### İdmana diqqət ildən-ilə artır

1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik edən Prezident İlham Əliyevin ardıcıl səyləri, uğurlu idman siyasəti nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət ildən-ilə daha da artır. Dövlət başçısının idmanı sevməsi, idmançılara xüsusi həssaslıqla yanaşması, onların peşəkarlıqlarının artırılmasına göstərdiyi davamlı qayğı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, Olimpiya İdman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları buna əyani sübutdur. Bu qərarlar müsbət nəticələr verir, Olimpiya Oyunlarında və dünya çempionatlarında qazanılan medalların, nailiyyətlərin sayı ildən-ilə artır.



### Bölgələrimiz də idman yarışları üçün əlverişli məkandır

Ölkəmiz beynəlxalq nüfuzlu idman yarışların keçirilməsi üçün əlverişli məkana çevirib. İndi nəinki Bakıda, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman kompleksləri tikilib. Həmin idman mərkəzləri uğurla fəaliyyət göstərir. Bölgələrimizdə də yerli və beynəlxalq turnirlər yüksək səviyyədə təşkil olunur. Bu, onu göstərir ki, Azərbaycan nüfuzlu yarışları yalnız paytaxt Bakıda deyil, idman infrastrukturu olan regionlarda da qəbul etməyə tam hazırdır. 2023-cü ildən işğaldan azad olunmuş ərazilərimizdə də beynəlxalq turnirlərin təşkilinə start verildi.

### İdman tariximizin ən önəmli hadisəsi

2023-cü il dekabr ayının 21-də xalqımız tarixi hadisəyə şahidlik etdi. 30 illik fasilədən sonra Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları qarşılaşdı. Azərbaycan xalqı ölkə başçısının və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə yenidənqurma işlərinin başa çatdığı Xankəndi şəhər stadionundakı qarşılaşmanı ilk dəfə canlı izləmək şansı əldə etdi. Bu möhtəşəm hadisə təkcə ilin yox, Azərbaycan idman tarixinin ən önəmli hadisələrindən biri kimi yaddaşlara həkk olundu.

Bütün bu uğurlar Azərbaycanda əsası Ümummilli Lider tərəfindən qoyulmuş idmana, gənclərimizin sağlamlığına yüksək diqqət və qayğı siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi sayəsində əldə olunub. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, idmançılara göstərilən diqqət və qayğı, ölkəmizdə ən yüksək standartlara cavab verən mükəmməl idman infrastrukturu qarşıdakı illərdə daha böyük nailiyyətlərin qazanılacağına güclü zəmin formalaşdırır. Bununla da "Sağlam bədəndə sağlam ruh olar" prinsipinə söykənərək demək olar ki, Azərbaycan sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir.

***Yeganə BAYRAMOVA***

# Vətənpərvər gənclik üçün...

## Gənclərimizin milli və bəşəri ruhda yetişdirilməsi borcumuzdur

Müasir dövrdə gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi mühüm əhəmiyyət daşıyır. Bu mənada, gənc nəslin psixoloji, mənəvi baxımdan hərbi xidmətə hazırlanması vacib məsələlərdəndir. Məlumdur ki, vətənpərvərlik əsrlərlə insanların qan yaddaşına həkk olunmuş hisslərdəndir. Vətəni sevmədən, qorumadan, ata-babalarımızın keçdikləri yollara nəzər salmadan, onların qəhrəmanlıq nümunələrini öyrətmədən vətənpərvər övlad yetirmək olmaz. Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəklənməsinə istiqamətləndirən ən güclü, mənəvi, əxlaqi hissdir. Bu hissi hələ uşaqlıq illərindən aşılamaq başlıca vəzifədir.

Vətəndaşlıq borcu ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır. Vətən torpağı hər birimiz üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Əsl vətəndaş odur ki, öz Vətənini öz qəlbi ilə, canı və qanı ilə sevir. Onun azadlıq və istiqlaliyyəti uğrunda hər an canını qurban verməyə hazırdır.

### Gənclərimizdə özünəinam artıb

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov bildirib ki, artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, güclü vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb: "Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam artıb. Azərbaycan gəncliyi ən yüksək münasibətə layiqliyini, doğma torpaq, yurd sevgisini, cəsarət və fədakarlığını Vətən müharibəsində sübuta yetirib. Bu müharibə böyük milli potensialımızı üzə çıxarıb. Reallıq göstərdi ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib. Bu nəsil xalqın milli maraqlarının pozulmasına heç vaxt yol verməz, haqqımız olanın əlimizdən alınması ilə barışmaz. Canı-qanı bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edər".



### Sabaha və uğurlara hesablanan siyasət...

Deputatın sözlərinə görə, Azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişdirilən nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayır, ildən-ilə öz potensiallarının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir: "Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində zəruri tədbirlər həyata keçirilir. "Bədən tərbiyəsi və idman haqqında", "Gənclər siyasəti haqqında" qanunlar, habelə "Gənc ailə" proqramı, "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi haqqında", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramları da bu qəbildəndir. Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

### Valideynlər də vətənpərvər ruhda olmalıdır

Deputat qeyd edib ki, insanın ən ali hissi olan vətənpərvərlik anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir: "Yeniyetmə və gənclərimizin bu ruhda tərbiyəsi həmişə təlim-tərbiyə işinin, istər ailədə, istərsə də təhsil ocaqlarında ən mühüm istiqamətlərdən biri olmuş və olmalıdır. Gənclərimizdə vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə, bütöv bir xalqın gələcəyini təmin edən amillərdəndir. Şübhəsiz ki, hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir.

Onu da qeyd etmək istəyirəm ki, vətənpərvərlik tərbiyəsi təkcə tərbiyə və təhsil müəssisələrində aparılmır. Vətənpərvərlik tərbiyəsində hər bir gəncin doğulub, boya-başa çatdığı ailənin də böyük rolu vardır. Gənclərin bir vətəndaş kimi yetişməsində ailənin, cəmiyyətin, ümumilikdə, mühitin rolu böyükdür. Vətənpərvərlik tərbiyəsinin mənbəyi ailədir. Gənclər bir insan, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Təcrübə göstərir ki, ailədə vətənpərvərlik tərbiyəsi yalnız özbaşına, kör-koranə deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqlara vətən sevgisi aşılamaq üçün ilk növbədə valideynlər o ruhda olmalıdırlar".

***Yeganə***


## "Nar" ardıcıl altıncı il Müştəri Loyallığı İndeksində lider olub




Sərfəli internet tarifləri və münasib qiymət siyasəti sayəsində "Nar" Müştəri Loyallığı İndeksi (Net Promoter Score - NPS) üzrə 6-cı dəfə ölkənin lider mobil operatoru seçilib. Operator ümumi NPS göstəricisi üzrə lider olmaqla yanaşı, Gəncə, Xaçmaz, Sumqayıt, Abşeron və Lənkəran bölgələrində də ən yüksək nəticələri əldə edib. Respondentlərin fikrincə, ən yaxşı mobil internet və sərfəli qiymətləri məhz "Nar" təklif edir. Beynəlxalq araşdırma şirkəti tərəfindən keçirilən sorğuda müxtəlif yaş və peşə qruplarından insanlar iştirak edib və nəticələr "Nar"ın müştəri məmnuniyyətindəki dayanıqlı liderliyini təsdiqləyib.

"Nar" müştəri təcrübəsini gücləndirən əsas amillərdən biri də rahat və əlçatan xidmət təqdim edən mağazalar şəbəkəsidir. 2024-cü il ərzində altı yeni mağaza istifadəyə verilib. Bununla yanaşı, 2019-cu ildən başlanmış mağazaların modernləşdirilməsi başa çatıb və artıq bütün "Nar" mağazaları müasir konsept və rahat müştəri təcrübəsi ilə fərqlənir. Yenilənmiş mağazalar mobil rabitə xidmətləri üçün daha əlverişli mühit yaradır ki, bu da müştəri loyallığına müsbət təsir edir.

"Nar" müştəri məmnuniyyətini yalnız sərfəli xidmətlə deyil, sosial məsuliyyət strategiyası ilə də gücləndirir. Operator 2024-cü ildə təhsil, milli-mənəvi irs, vətənpərvərlik və inklüzivliyə yönəlmiş 40-dan çox sosial layihəyə iki milyon manata yaxın sərmayə yatırıb. Bu təşəbbüslər "Nar"ın cəmiyyət üçün sosial dəyər yaradan bir brend olduğunu göstərir. Şirkət 2025-ci ildə də bu istiqamətdə fəaliyyətini genişləndirməyi hədəfləyir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## "Bakcell" Sumqayıtda yeni Müştəri Xidmətləri Mərkəzini istifadəyə verdi

İnnovasiya və sürət lideri "Bakcell" Sumqayıt şəhərində yeni Müştəri Xidmətləri Mərkəzinin açılışını edib. Yeni mərkəz abunəçilərə daha sürətli, rahat və texnoloji xidmətlər təqdim etməklə, fərqli müştəri təcrübəsi vəd edir.




Sülh küçəsi 196 ünvanında yerləşən yeni "Bakcell" Müştəri Xidmətləri Mərkəzi ənənəvi xidmətlərlə yanaşı, şirkətin ən son yenilikləri ilə tanış olmaq imkanı yaradır. Mərkəzdə müştərilər həm yüksək texnoloji həllərdən yararlana, həm də süni intellekt dəstəkli xidmətlər haqqında ətraflı məlumat ala bilərlər. Xüsusilə, elektron guşələr və növbəli keçid sistemi müştəri əməliyyatlarının daha keyfiyyətli və sürətli şəkildə həyata keçirilməsini təmin edir.

Vurğulayaq ki, yeni açılmış Müştəri Xidmətləri Mərkəzi "Bakcell"in ölkə üzrə sayca 21-ci xidmət mərkəzidir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4852**
**Sifariş: 500**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova